RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 115 (9860) 4 iyun 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Ötən 30 il göstərdi ki...

## Prezident İlham ƏLİYEV: "Enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir"



**Bu gün təkcə neft-qaz sektorunda deyil, bütün sahələrdə ölkəmizin qazandığı nailiyyətlər göz qabağındadır. Prezident İlham Əliyev ötən illərdə olduğu kimi, bu dəfə də Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində iştirak etdi və öz çıxışında keçilmiş yola nəzər salaraq dedi: "Təsəvvür edirsiniz ki, gələcəklə bağlı nə dərəcədə qaranlıq mənzərə yaranmışdı?! Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir. Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir. Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir. Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı".**

**Bir uzunömürlü sərgi, əməkdaşlıq platforması, uğurların nümayişi olaraq "Caspian Oil and Gas" 30 ildən çoxdur beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməkdədir. Təsadüfi deyil ki, hər il ABŞ, Böyük Britaniya, Türkiyə kimi ölkələrin rəhbərlərindən, dünyanın tanınmış siyasətçi və mütəxəssislərindən tədbirin açılışı münasibətilə Prezidentimizə təbrik məktubları ünvanlanır. ABŞ Prezidenti Donald Tramp budəfəki tədbirlə bağlı dövlətimizin başçısına məktubunda yazır: "Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisinin keçirilməsi münasibətilə təbrik edirəm. Bu, Azərbaycanın, həqiqətən də, regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir. 30 il ərzində iki millətimiz, iki xalqımız, həqiqətən də, enerji sərvətləri fonunda karbohidrogen sektorunda liderliyini nümayiş etdirmişdir. Həqiqətən də, qlobal enerji ehtiyatlarının növbəti onillərlə qarşılanması baxımından da bu çox önəmlidir ki, hər bir xalqın resursları öz rifahına xidmət etsin".**

→ 9

# Azərbaycanın Qazaxıstanla əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə



Hörmətli Kasım-Jomart Kemeleviç!

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanmasının 20 illiyi münasibətilə mənə ünvanladığınız təbrik məktubunuza görə Sizə təşəkkür edirəm. Mən də öz növbəmdə bu əlamətdar ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizinlə tam razıyam ki, bu mühüm sənəd Azərbaycan-Qazaxıstan əlaqələrinin tarixində yeni səhifə açaraq əməkdaşlığımızı daha da möhkəmləndirmişdir.

Dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini özündə əyani şəkildə əks etdirən bu tarixi sənəd bütün səviyyələrdə fəal siyasi dialoqun inkişafına, iqtisadi, ticari, humanitar və digər sahələrdə səmərəli tərəfdaşlığın genişləndirilməsinə əlverişli zəmin yaratmışdır.

Qardaş ölkə və etibarlı strateji tərəfdaşımız olan Qazaxıstanla əlaqələrimizin hazırkı səviyyəsi məmnunluq doğurur. İkitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Eyni zamanda ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi təqdirəlayiqdir.

İnanıram ki, xalqlarımızın qardaşlığı, ortaq tarixi-mədəni kökləri, mənəvi dəyərləri kimi sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Qazaxıstan ənənəvi dostluq əlaqələri və strateji tərəfdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli Kasım-Jomart Kemeleviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2025-ci il*

# Regionun söz sahibi



1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın israrlı çağırışı ilə yenidən hakimiyyətə qayıdışı vəziyyəti köklü şəkildə dəyişdi. Qısa müddət ərzində ölkədə sabitlik və əlverişli biznes mühiti yaradıldı. Bu da Azərbaycana maraq göstərən ölkələrin və investorların sayının artmasına səbəb oldu. Nəticədə Azərbaycan böyük sərmayələrin cəlb edildiyi mühüm iqtisadi məkana çevrildi. Hazırda ölkəmizin uğurlu enerji siyasəti Azərbaycanın hüdudlarından kənara çıxıb. Regional çərçivədə başlayan əməkdaşlıq illər keçdikcə coğrafiyasını genişləndirərək beynəlxalq miqyas alıb. Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməsi əməkdaşlıq əlaqələrinin genişlənməsində öz sözünü deyir. Bu gün ölkəmizdə dünya səviyyəli tədbirlərin keçirilməsi ənənə halını alıb.

Bakı Enerji Həftəsi isə öz növbəsində, enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi mötəbər platformadır: "Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları bir yerə toplayır. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən növbəti tədbirlərdə isə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi iştirak edir. Forum çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar bu sahədə yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və qarşıdakı dövr üçün inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir.

→ 5

# Laçından verilən mesaj



Laçında keçirilən Zirvə görüşündə dövlətimizin başçısının Türkiyə və Pakistanın 44 günlük Vətən müharibəsində mənəvi və siyasi cəhətdən yanımızda olmaları barədə dediyi sözlər xalqımızın qədir bilməsindən xəbər verir. Prezident İlham Əliyev demişdir: "Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq. Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik".

Bu fikirlərsə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məxsusdur: "Qarşılıqlı sevgi, hörmət və etimada əsaslanan, eyni mədəniyyət mühitindən bəhrələnən ortaq idealları bölüşən üç qardaş ölkəyik. Təxminən 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib ölkələrimizin arasındakı bağları daha da gücləndiririk. Birliyimizi strateji tərəfdaşlığa çevirməyə yönəlmiş hər bir addımın arxasında olduğumuzu xüsusilə vurğulamaq istəyirəm".

Elə bu səbəbdən Laçında keçirilən Zirvə görüşü dünyada geniş rezonans doğurdu. Çünki bu görüşdə Azərbaycan, Türkiyə və Pakistan baş verə biləcək bütün sınaqlara hazır olduqlarını nümayiş etdirdilər. Bəzi məlum ölkələr anladılar ki, Azərbaycana qarşı atılan hər hansı yanlış addım üç güclü dövlətin müqavimətinə tuş gələ bilər.

→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına firavanlıq və tərəqqi diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə Sizə və xalqınıza Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımızı və təbriklərimizi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına daha da çox firavanlıq və tərəqqi diləyirəm.

Həmçinin ölkələrimiz arasında mövcud olan sıx münasibətlərin qarşıdakı illərdə möhkəmlənməkdə davam etməsini arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Sinqapur xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə xoş arzularımı bildirir, ölkənizə və xalqınıza davamlı sülh, tərəqqi və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Tarman ŞANMUQARATNAM,***
***Sinqapur Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Venesuela Bolivar Respublikasının xalqı və hökuməti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuram.

Venesuela Hökuməti bu mühüm tarixdə hər iki ölkə arasında dostluq əlaqələrini dərinləşdirmək və ümumi fayda ilə nəticələnən birgə layihələr həyata keçirmək üçün Azərbaycan Hökuməti ilə həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə yaratdığımız əməkdaşlıq mexanizmlərini möhkəmləndirməyə hazır olduğunu bir daha bəyan edir.

Zati-aliləri, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Nikolas Maduro MOROS,***
***Venesuela Bolivar Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını bütün kanadalılar adından təbrik edirəm.

Kanada və Azərbaycan dövrümüzün ən aktual problemlərinin həllinə sadiqliyimizlə möhkəmlənmiş yaxşı ikitərəfli əlaqələrə malikdir. Kanada Azərbaycanla əlaqələrini, eləcə də fəal Azərbaycan-Kanada icması tərəfindən qurulan xalqlararası münasibətləri möhkəmləndirmək niyyətindədir. Ölkəmiz Cənubi Qafqazda davamlı sülhün əldə olunacağına ümid edir və bu ümumi prioritet üzrə irəliləyişi təşviq etməyə sadiqdir.

Kanada, həmçinin hamımız üçün daha parlaq gələcək istiqamətində fəaliyyətimizə imkan verən ümumi dəyərlərə - demokratiyaya, qanunun aliliyinə hörmətə və insan hüquqlarının qorunmasına əsaslanan əməkdaşlığı inkişaf etdirməkdə davam edəcəkdir.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Meri SAYMON,***
***Kanadanın General-Qubernatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Zati-alinizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan Respublikasının Hökumətinə və xalqına tərəqqi və rifah arzulayıram.

Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edəsiniz.

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi diləyirəm.

Zati-alinizə ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə cansağlığı və səadət, qardaş ölkənizə və onun xalqına isə daha da çox tərəqqi və rifah arzu edirəm.

*Dərin hörmətlə,*

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dost!

28 May - Müstəqillik Günü münasibətilə Sizə, ailənizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

İsrail və Azərbaycan arasındakı münasibətlər dərin tarixi kökə malikdir və ortaq dəyərlərimiz, xalqlarımız arasında möhkəm dostluq münasibətləri ilə daha da möhkəmlənib. Bu illər ərzində biz hökumətlərimiz və xalqlarımız arasında qarşılıqlı etimada, xoş niyyətə və həqiqi hörmətə əsaslanan tərəfdaşlığı inkişaf etdirmişik.

Mən Azərbaycanın yəhudi icmasına və mədəniyyətinə davamlı dəstəyini, habelə HƏMAS-ın ötən il oktyabrın 7-də hücumundan sonra İsrailə nümayiş etdirdiyi davamlı həmrəyliyi yüksək qiymətləndirirəm. Ölkəniz unudulmayacaq dərəcədə gözəl mərhəmət və dostluq nümunəsi göstərmişdir. Mən, həmçinin Azərbaycanın İsrail və Türkiyə arasında dialoqa təkan verilməsində, regional əməkdaşlığın inkişaf etdirilməsində roluna görə minnətdarlığımı bildirmək istəyirəm.

Sizin rəhbərliyiniz altında Azərbaycan sabitlik və güc amilinə, firavanlıq mayakına və bütün regionda uğurlu iqtisadi inkişaf modelinə çevrilib.

Təəssüf edirəm ki, gözlənilməz vəziyyət səbəbindən iş qrafikimdə dəyişiklik zərurəti yarandı və bu, məni Azərbaycana çoxdan gözlədiyim səfərimi təxirə salmağa məcbur etdi. Bununla belə, mən səmimi şəkildə ümid edirəm ki, bizim ortaq maraqlarımızı və istəklərimizi müzakirə etməyə davam edə bilməyimiz üçün ya İsraildə, ya da Azərbaycanda görüşümüzü Sizə münasib vaxta təyin edəcəyik.

Daha uzun illər üçün firavanlıq, dostluq və uğurlar arzuları ilə,

*Hörmətlə,*

***Benyamin NETANYAHU,***
***İsrail Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə zati-alinizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan sevinc duyuruq.

Fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edirik.

Sizə uzun ömür, cansağlığı, dost ölkənizə davamlı inkişaf və firavanlıq diləyirik.

*Ən xoş arzularla,*

***Əhməd Abdullah əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Yamayka Hökuməti və xalqı adından Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Yamayka 1995-ci ildə diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycan ilə mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirir və qarşıdakı illərdə əməkdaşlığı daha da möhkəmləndirməyə ümid edir.

Zati-aliləri, xahiş edirəm, Azərbaycan Hökumətinə və xalqına davamlı sülh və firavanlıq arzularımı qəbul edin.

*Hörmətlə,*

***Endryu HOLNESS,***
***Yamaykanın Baş nazir***

## "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il avqustun 1-də Bakı şəhərində və sentyabrın 8-də Monreal şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2025-ci il*

## Qaraməryəm-İsmayıllı-Şəki magistralını Oğuz rayonunun Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qaraməryəm-İsmayıllı-Şəki magistralını dörd min nəfər əhalinin yaşadığı Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2025-ci il*

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**hərbi məhkəmələr üzrə:**

**Füzuli Hərbi Məhkəməsi**
Quliyev Seymur Səhyəddin oğlu

**Tərtər Hərbi Məhkəməsi**
Şəfiyeva Könül Səməd qızı

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Naxçıvan Şəhər Məhkəməsi**
Heydarov Aslan Nazim oğlu

**Şərur Rayon Məhkəməsi**
Zeynalov İlkin Cəlal oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Rzayev Anar Nurəddin oğlu

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Nağıyev Vüqar Güloğlan oğlu

**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Əsgərov Natiq Fərhad oğlu

**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Fətəliyev Emin Mirzə oğlu

**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Babayev Kamal Yunis oğlu
Musayev Tural Səmid oğlu

**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Fərəcova Gülşən Sabit qızı

**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**
Bağırova Sahilə Hümbət qızı
Quliyeva Afət Xansıvar qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağdaş Rayon Məhkəməsi**
Ələkbərova Fidan Vaqif qızı

**Beyləqan Rayon Məhkəməsi**
Səfərov Səbuhi Əlifağa oğlu

**Cəlilabad Rayon Məhkəməsi**
Mehrəliyeva Ləman Həmzağa qızı

**Gəncə Şəhər Məhkəməsi**
Dəmirli Orxan Əhməd oğlu
Həsənli Məhəmməd Vahid oğlu
Məmmədov Elçin Umud oğlu

**Göygöl Rayon Məhkəməsi**
Hüseynzadə Leyla Vəliyyəddin qızı

**İmişli Rayon Məhkəməsi**
Ağayeva Gülsaba Xeyrulla qızı

**İsmayıllı Rayon Məhkəməsi**
Qoşqarova Nərmin Rabit qızı

**Quba Rayon Məhkəməsi**
Xəlilova Nigar Nemət qızı
Kamilli Günel Hakim qızı

**Mingəçevir Şəhər Məhkəməsi**
Hüseynli Tural Mirbahəddin oğlu

**Neftçala Rayon Məhkəməsi**
Qasımzadə Ləman Fəxrəddin qızı

**Sabirabad Rayon Məhkəməsi**
Cəfərov Cavid Zahid oğlu

**Salyan Rayon Məhkəməsi**
Alıyev Rüstəm Böyükağa oğlu
Kələntərov Şahəddin Əhməd oğlu

**Sumqayıt Şəhər Məhkəməsi**
İmamverdiyeva Pərvin Arif qızı

**Şamaxı Rayon Məhkəməsi**
Abasov Qürur Bəybala oğlu

**Şəki Rayon Məhkəməsi**
Cəfərova Şəfəq Natiq qızı
Məmmədova Pərvanə Əziz qızı

**Şəmkir Rayon Məhkəməsi**
Yusifli Seymur Mübariz oğlu

**Tərtər Rayon Məhkəməsi**
Məmmədova Maya Vahid qızı

**Tovuz Rayon Məhkəməsi**
İsaqlı Pərvanə Zakir qızı

**Yevlax Rayon Məhkəməsi**
Babayeva Aybəniz Elman qızı

**Zərdab Rayon Məhkəməsi**
Abbasov Cavid Mehman oğlu.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Abil Elmar oğlu Orucəliyev Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Hafiz Samir oğlu Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Goranboy Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Roman Nəriman oğlu Ələkbərli Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Hafiz Eldar oğlu Kamranov Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elmin İltizam oğlu Rüstəmov Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Vüqar Mircuma oğlu Seyidov Quba Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Zaur Arif oğlu Hacıyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Bilal Mahir oğlu Məmmədov Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Anar Zahid oğlu Rzayev Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Günel Kamil qızı Səmədova Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

Günel Cəbrayıl qızı Tanrıverdiyeva Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Etibar Mustafa oğlu Mustafayev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Şəki İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Pərviz Mirsiyaf oğlu Zamanlı Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Toğrul Məhəmməd oğlu Məmmədov Goranboy Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Emin Tahir oğlu Axundov Gəncə İnzibati Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Müseyib Seyfəddin oğlu Bayramov Kürdəmir Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Vüsal Rafiq oğlu Qurbanov Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

İlqar Məsail oğlu Quliyev Tərtər Hərbi Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Şəmkir Rayon Məhkəməsinin hakimi təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2025-ci il*

## Baş nazir Əli Əsədov Seneqalın dövlət idarəçiliyi və dövlət xidmətlərində islahatlar naziri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 3-də Seneqalın dövlət idarəçiliyi və dövlət xidmətlərində islahatlar naziri Olivye Bukal ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın Afrika dövlətləri, o cümlədən Seneqal ilə əlaqələrin inkişafına əhəmiyyət verdiyi bildirilib. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlıqdan məmnunluq ifadə olunub. O.Bukalın səfəri çərçivəsində Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN xidmət" ilə Seneqalın Dövlət İdarəçiliyi və Dövlət Xidmətlərində İslahatlar Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan-Seneqal əlaqələrinin müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

## Milli Məclisin iclasında

# Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb

**İyunun 3-də Milli Məclisin 2025-ci ilin növbədənkənar sessiyasında ilk iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 7 məsələnin müzakirə olunacağını, gündəliyin birinci məsələsinin "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) olduğunu bildirib.**





Məsələ barədə məlumatı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov nəzərə çatdırıb. Komitə sədri bildirib ki, "Büdcə sistemi haqqında" Qanuna uyğun olaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və illik hesabat Prezident İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunub.

O, komitə çərçivəsində məhsuldar büdcə müzakirələrinə yüksək səviyyədə şərait yaradılmasına görə, parlamentin sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edərək, qanun layihəsinin və illik hesabatın komitə iclasında aidiyyəti dövlət orqanları rəhbərlərinin və nümayəndələrinin geniş tərkibdə iştirakı ilə səmərəli və konstruktiv müzakirə olunduğunu qeyd edib.

Komitə sədri Prezidentin müxtəlif illərdə dövlət büdcəsi ilə bağlı səsləndirdiyi mühüm tezisləri, o cümlədən "Elə etməliyik ki, büdcə maksimum dərəcədə icra edilsin. Eyni zamanda maliyyə intizamı daha da yüksək səviyyədə olmalıdır", "Şəffaflıq tam şəkildə təmin edilməlidir", "Büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir", "İqtisadi artım olmadan, sadəcə büdcə xərcləri hesabına sosial məsələləri həll etmək çətindir", "Bizim bütün cari xərclərimiz qeyri-neft gəlirləri hesabına malyyələşdirilməlidir" kimi tövsiyələrini xatırladaraq, ölkə başçısının konseptual xarakterli bu fikirlərinin dövlət maliyyəsinin və büdcə siyasətinin hədəf və prinsiplərini çox aydın şəkildə əks etdirdiyini bildirib.

Azər Əmiraslanov ötən ilin dövlət büdcəsinin dürüstləşdirilmiş büdcə olduğunu dedi, həm də artan büdcə kimi qiymətləndirdi. O, sosial və investisiya yönümlü xərclərin uzlaşdırılmasının və bir-birini tamamlamasının icra edilmiş büdcənin əsas cəhətlərindən olduğunu, bununla yanaşı, onun dayanıqlıq meyarlarına cavab verdiyini, ötən il cari xərclərin 90,1 faizinin qeyri-neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılandığını bildirdi.

Diqqətə çatdırılıb ki, dünya iqtisadiyyatındakı neqativ konyunktur dəyişikliklərdən fərqli olaraq, ölkəmizdə 2024-cü ilin makroiqtisadi mənzərəsi qənaətbəxş olub. Bu dövrdə ÜDM 4,1 faiz artıb. Qeyri-neft sektorunda artım isə 6,2 faiz təşkil etməklə ÜDM-də 68 faizlik paya malik olub. İllik inflyasiya 4,9 faiz olmaqla hədəf diapazonu daxilində formalaşıb, orta illik inflyasiya isə 2,2 faiz təşkil edib. Görülmüş tədbirlər milli valyutanın mübadilə məzənnəsində sabitliyi təmin edib. Tədiyyə balansının cari əməliyyatlar hesabı 4,7 milyard dollarlıq müsbət saldoya malik olub. Beləliklə, strateji valyuta ehtiyatlarımız 71,0 milyard dollara çatıb. Bu göstərici xarici dövlət borcunu təqribən 14 dəfə üstələyib. 2024-cü ildə "Azeri Light" markalı neftin bir barelinin orta illik qiyməti 82,8 dollar səviyyəsində qərarlaşıb. Bu, icra edilmiş dövlət büdcəsi üzrə əsas götürülən 75 dollardan 10,4 faiz çox olub. Beləliklə, ötən ilin dövlət büdcəsi makroiqtisadi sabitlik şəraitində icra edilməklə yanaşı, həm də makroiqtisadi tarazlığın qorunmasına töhfə verib.

Komitə sədri bildirib ki, 2024-cü il üzrə dövlət büdcəsinin gəlirləri 37,2 mlrd. manat olmaqla, proqnoza qarşı 774 mln. manat və ya 2,1 faiz, 2023-cü illə müqayisədə isə 1,9 mlrd. manat və ya 5,5 faiz çox icra edilib. Vergi orqanlarının xətti ilə büdcəyə 15,8 mlrd. manat, gömrük orqanlarının xətti ilə 6,6 mlrd. manat vəsait təmin edilib. Bu isə proqnoza nisbətən müvafiq olaraq, 538 mln. manat və 214 mln. manat çoxdur. Qeyri-neft sektoru üzrə büdcə daxilolmaları proqnozla müqayisədə 573 mln. manat və ya 3,1 faiz artıq icra olunmaqla, 19,2 mlrd. manat təşkil edib. Büdcənin gəlirlərində qeyri-neft sektorundan daxilolmaların payı 48,5 faizdən 51,6 faizə yüksəlib. Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulduğu kimi, 12,8 mlrd. manat transfert edilib.

O, 2024-cü ildə dövlət büdcəsinin xərclərinin proqnozun 95 faizi həcmində və ya 37,7 mlrd. manat icra edildiyini söyləyib. Büdcə kəsirinin 551,8 milyon manat və ya təsdiq olunmuş proqnozla, yəni 3,3 milyard manatla müqayisədə 6,1 dəfə az olduğunu deyib. Qeyd edib ki, icmal büdcənin gəlirləri 48,0 mlrd. manat, xərcləri isə 43,0 mlrd. manat icra olunub. İcmal büdcə 2,1 mlrd. manat kəsirlə proqnozlaşdırılsa da, faktiki olaraq 5,1 mlrd. manat məbləğində profisit yaranıb. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinin yuxarı həddi 2024-cü ilin sonuna 24,0 faiz hədəfləndiyi halda, bu rəqəm 20,6 faiz olub. Dövlət borcunun ÜDM-ə nisbətinin isə ortamüddətli dövr üzrə yuxarı həddi 30,0 faiz səviyyəsində hədəfləndiyi halda bu göstərici 21,7 faiz təşkil edib.

Sonra komitə sədri büdcənin prioritet xərc istiqamətləri barədə söhbət açıb. O, qeyd edib ki, hesabat ilində sosialyönlü xərclərin maliyyələşməsi üçün büdcə xərclərinin 38,9 faizi həcmində və ya 14,7 mlrd. manat vəsait istifadə olunub. Ümumiyyətlə, son 5 ildə (2020-2024) sosialyönlü xərclər 4 mlrd. manat və ya 37,7 faiz artıb.

Bildirilib ki, əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də dövlətimiz tərəfindən əhalinin rifahının yaxşılaşdırılması, həssas əhali qrupunun sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra qərarlar qəbul edilib. Belə ki, orta pensiya məbləği 12,0 faiz artımla 494 manata, yaşa görə pensiya 11,3 faiz artımla 528 manata, yaşayış minimumu 9,8 faiz artımla 270 manata çatdırılıb. Ehtiyac meyarının da 246 manatdan 270 manata yüksəldilməsi ilə ünvanlı dövlət sosial yardımı üçün ayrılan büdcə vəsaiti 179 milyon manat artırılaraq 457 milyon manat təşkil edib.

Elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və gənclər siyasəti xərclərinə 11,5 mlrd. manat vəsait sərf edilib.

Ötən ilin müdafiə və milli təhlükəsizlik xərclərinin maliyyələşdirilməsinə 6,7 mlrd. manat vəsait yönəldilib ki, bu da büdcə məxaricinin 18 faizini təşkil edir.

2024-cü ildə dövlət büdcəsinin faktiki xərclərinin 47,7 faizi və ya 18 mlrd. manatı dövlət proqramlarının və məqsədli tədbirlərin maliyyələşdirilməsinə yönəldilib. Bu məbləğin 6,4 mlrd. manatı "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın maliyyə təminatı üçün ayrılıb.

Xarici kreditlər hesabına reallaşan layihələr də nəzərə alınmaqla investisiya qoyuluşu üçün 2,7 mlrd. manat vəsait yönəldilib.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 5,3 mlrd. manat vəsait ayrılıb. Həmin vəsaitin 91,1 faizi infrastruktur, 6,6 faizi sosial, 2 faizi minalardan təmizlənmə, 0,3 faizi müdafiə və hüquq mühafizə təyinatlı layihələrin maliyyələşməsinə yönəldilib.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 486 milyon manat vəsait sərf edilib.

Azər Əmiraslanov büdcə vəsaitlərinin ümummilli inkişaf prioritetlərinin və vəzifələrinin, məqsəd və hədəflərinin reallaşdırılmasının maliyyə təminatı kimi çıxış etdiyini bildirib. O, dövlətimizin strateji maraqlarının, xalqımızın rifahının, ölkəmizin uzunmüddətli inkişaf prioritetlərinin reallaşmasına nail olmaq üçün dövlətimizin iqtisadi gücünün artırılmasının, maliyyə dayaqlarının möhkəmləndirilməsinin, büdcə vəsaitlərindən səmərəli istifadə edilməsinin, maliyyə intizamının gücləndirilməsinin önəmli olduğunu söyləyib. Ötən ilin dövlət büdcəsinin Prezidentin müəyyən etdiyi strateji inkişaf prioritetlərinə və sosial-iqtisadi hədəflərə uyğun olaraq uğurla icra edildiyini vurğulayıb.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini diqqətə çatdırıb. O bildirib ki, 2024-cü ilin dövlət büdcəsi ölkə Prezidenti tərəfindən təsdiq edilmiş 2022-2026-cı illəri əhatə edən ölkə strategiyasının ardıcıl olaraq 3-cü ilinin icrası, o cümlədən işğaldan azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinin aparılması üçün büdcədən vəsaitlərin ayrılması, həmin strategiyanın tələblərinə uyğun olaraq ölkədə dövlət maliyyəsinin idarəedilməsi sahəsində aparılan islahatların ikinci mərhələsinin davam etməsi kimi tədbirlərin icrası ilə müşayiət edilib. Hesabat ilində orta illik inflyasiya son 10 ildə ən aşağı səviyyədə olub, qeyri-neft sektoru üzrə real artım tempi 6,1 faiz təşkil edib, neftin qiymətinin büdcədə nəzərdə tutulandan daha çox olması səbəbindən büdcə göstəricilərinin yaxşılaşması, həmçinin strateji valyuta ehtiyatlarının həcminin bir qədər artması müşahidə edilib.

Palata sədri 2024-cü il dövlət büdcəsinin icrası haqqında Qanun layihəsi barədə fikirlərini açıqlayaraq bildirib ki, dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlar əsasında 2024-cü ildə 36,0 mlrd. manat məbləğində daxilolmalar təhlil edilib ki, bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 96,8 faizinə bərabər olub. Aidiyyəti qurumlardan alınmış hesabatlardakı göstəricilərin 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatda əks etdirilmiş göstəricilərlə əsasən uyğunluq təşkil etdiyi müəyyən olunub. O, həmçinin xərclərin ümumi məbləği, o cümlədən xərc istiqamətləri üzrə məbləğlərlə bağlı qeyd edib ki, 173 qurum üzrə 32,1 mlrd. manatı əhatə edən və vəsaitlərin icrasını təsdiq edən xəzinə üzləşmə aktları və digər sənədlər nəzərdən keçirilib ki, bu da icra edilmiş dövlət büdcəsi xərclərinin 85,2 faizini təşkil edir. Qanun layihəsinin "Büdcə sistemi haqqında" Qanunun 20.6-cı maddəsi ilə müəyyən edilmiş tələblərə, əsasən uyğun olduğu söylənilib.

Vüqar Gülməmmədov illik hesabata dair açıqlamasında bildirib ki, sənəd müəyyən edilmiş müddətlərdə təqdim olunub, tələb olunan məlumat və göstəricilər hesabata daxil edilib. Aparılan təhlillər büdcə sənədləşməsində məlumatlılığın nisbətən artırıldığını, izah və məlumatların keyfiyyətinin yüksəldilməsi istiqamətində müəyyən addımların atıldığını göstərir.

Sonra Hesablama Palatasının sədri dövlət büdcəsinin icrası ilə bağlı bəzi məlumatları və aparılan təhlillərin nəticələrini, eyni zamanda tövsiyələrini diqqətə çatdırıb.

Bildirilib ki, 2024-cü ildə makrogöstəricilər əsasən optimist ssenarisi üzərindən icra edilib. Təqdim edilmiş məlumatlara əsasən, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sının 2024-cü ildə maliyyə təminatı üçün 6,4 mlrd. manat icra olunub. İcra olunmuş vəsaitin əhəmiyyətli hissəsini əsaslı xərclər təşkil edib. Aparılan təhlillər fiskal çərçivənin hər 2 göstəricisinin müəyyən edilmiş hədəflər çərçivəsində olduğunu göstərir. 2024-cü ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə dövlət büdcəsinin gəlirlərini təmin edən əsas fiskal qurumlar üzrə proqnozlar yerinə yetirilib. Dövlət Vergi Xidməti üzrə proqnozların artıq icrası dövlət büdcəsinə həm vergi borclarının, həm də artıq ödəmələrin artımı şəraitində təmin olunub. Dövlət Gömrük Komitəsi üzrə də daxilolmaların proqnozu üstələməsinə idxal həcminin baza ssenaridə verilmiş proqnozlardan icra prosesində çox olması, həmçinin müvafiq hesabdakı qalıqların əhəmiyyətli hissəsinin büdcəyə köçürülməsi təsirini ötürür. 2024-cü ildə dövlət büdcəsinin xərcləri 37,7 mlrd. manat məbləğində icra edilib. Hesabat ilinin xərclərində sosialyönlü istiqamətlər, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, eləcə də müdafiə və milli təhlükəsizlik sahəsi xüsusi diqqətdə saxlanılıb.

Qeyd olunub ki, müstəqillik əldə edildikdən sonra gəlir vergisinin dövlət büdcəsində ən yüksək payı 1839 mln. manat olmaqla ötən ilə təsadüf edir. Nəzərə çatdırılıb ki, 2024-cü ildə büdcə kəsiri 3,4 mlrd. manat məbləğində təsdiq edilmiş yuxarı həddə qarşı 551,8 mln. manat olub, 1776,6 mln. manat artıq cəlb edilmiş vəsait dövlət büdcəsinin sərbəst qalığına yönəldilib. Hesabat ili üçün təsdiq edilmiş dövlət borclanmasının yuxarı həddinə hər üç komponent üzrə əməl edilib.

Vüqar Gülməmmədov Milli Məclisə təqdim edilmiş "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" Qanun layihəsinin və 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatın qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlandığını söyləyib.

Məsələ ətrafında aparılan müzakirələrdə çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, Əli Hüseynli, deputatlar Rövşən Muradov, Bəhruz Məhərrəmov, Əli Məsimli, Aydın Mirzəzadə, Elman Nəsirov, Sahib Alıyev, Rəşad Mahmudov, Vüqar Bayramov, Aydın Hüseynov, Bəxtiyar Əliyev, Müşfiq Cəfərov fikirlərini bildiriblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova bütün çıxışlarda müsbət fikirlərin söylənildiyini, verilən təkliflərin hökumət üzvləri tərəfindən nəzərə alınacağını bildirib və məsələni səsə qoyub.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti məsələsinin Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Mülki Məcəlləsində, Vergi Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "İcra haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. Spiker qeyd edib ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və "Normativ hüququ aktlar haqqında" konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

İclasda məsələ barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, layihə "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 30 may tarixli qanunun icrası və qanunvericilikdə olan normalar arasında uyğunluğun təmin edilməsi məqsədilə hazırlanıb.

Həmin qanunla şəhərsalma və tikinti fəaliyyəti sahəsində müvafiq qərarların qəbul edilməsini təmin etmək məqsədilə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin elektron formada təşkil olunması və bu sahədə icraatın 2024-cü il yanvarın 1-dən həmin sistem üzərindən elektron qaydada həyata keçirilməsi təsbit və təmin edilib. Sistem Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya etdiyindən bütün tikinti obyektləri barədə məlumatların heç bir vaxt tələb edilmədən dərhal sistemin strukturuna daxil olan Tikintilərin Dövlət Reyestrinə ötürülməsi təmin edilir.

Bunlar nəzərə alınaraq, layihədə göstərilən qanunlarda dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli düzəlişlər təklif edilir. Bura məlumatların "sifarişli poçtla göndərilməsi"nə, "sənədlərin surəti"nə dair müddəaların müvafiq qanunlardan çıxarılması, məlumatların Tikintilərin Dövlət Reyestrinə ötürülməsi qaydasını müəyyən edən normalarda texniki xarakterli dəyişikliklərin edilməsi və sair aiddir. Habelə, meşə fondunda tikinti işlərinin aparılmasının tikinti sahəsində formalaşmış qanunvericiliklə uzlaşdırılması məqsədilə bu sahədə tikinti işlərinin Şəhərsalma və Tikinti Məcəlləsinə, "Ətraf mühitin mühafizəsi haqqında" qanuna, dağ-mədən işlərinin aparılmasının isə "Yerin təki haqqında" qanuna uyğun həyata keçirilməsinə dair müddəa əlavə edilir.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə bu komitələrin müsbət rəy verdiyini bildiriblər.

Deputat Hikmət Məmmədov bəzi fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti beş məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Komitə sədri qeyd edib ki, layihədə biznes prosedurlarının sadələşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində bir sıra dəyişikliklər nəzərdə tutulur.

Sənəddə hüquqi şəxsin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin iflas prosesində olması barədə məlumatların reyestrinin aparılması təklif olunur. Qanun layihəsinin qəbul edilməsi nəticəsində barəsində iflas proseduru başlanılmış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların vergi ödəyicilərinin uçotu reyestrində uçotunun aparılması, hüquqi şəxslər barədə məlumatların isə hüquqi şəxslərin dövlət reyestrində qeydə alınması ilə bağlı məsələlər tənzimlənəcək.

Digər dəyişiklik müddətlərin qısaldılması ilə bağlıdır. Belə ki, Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, eləcə də onun vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan digər məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, vergi ödəyicisi bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir. Eyni zamanda "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna əsasən, hüquqi şəxslər təsis sənədlərinə edilən hər bir dəyişiklik barədə həmin dəyişikliyin baş verdiyi andan 40 gün müddətində qeydiyyat orqanına ərizə ilə müraciət etməlidirlər. Təklif olunan dəyişikliyə əsasən, hər iki halda müddətlər azaldılaraq 15 gün müəyyən olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ ilə bağlı bu komitənin müsbət rəyini söylədikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, "Notariat haqqında" və "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Diqqətə çatdırılıb ki, layihə üzrə əsas dəyişikliklər Mülki Məcəlləyə təklif edilir, digər qanunlara isə mülki qanunvericilikdən irəli gələn düzəlişlər nəzərdə tutulur.

Sənəddə mirasın qəbul edilməsinin xüsusi müddətini və mirasın qəbul edilməsi vaxtının uzadılmasını nəzərdə tutan maddələrin ləğv edilməsi təklif olunur. Mülki Məcəllənin 1243.2-ci maddəsində mirasın qəbulunun qeyri-formal üsulu olaraq əmlaka sahiblik etmək və ya əmlakı idarə etməyə faktiki başlamaq göstərilsə də, həmin Məcəllənin 1243.3-cü maddəsində hər iki hal müəyyən edilmədiyindən müvafiq dəyişiklik təklif edilir. Layihədə Mülki Məcəllənin "Mirasın siyahısı" adlanan 1254-cü maddəsinə də dəyişiklik təklif edilərək, mirasın siyahıya alınması üçün nəzərdə tutulan müddətin mirasın qəbulundan imtina müddəti ilə məhdudlaşdırılması, həmçinin müvafiq hallarda müddətin axımının dayandırılmasını nəzərdə tutan əlverişli qaydalar müəyyən edilir.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ barədə komitənin müsbət rəyini nəzərə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Layihə üzrə məruzəçi bildirib ki, birinci oxunuşunda təklif olunan dəyişikliklərin məqsədi, zərurəti, layihənin əhatə dairəsi kimi məsələlər barədə ətraflı məlumat verilib. O, sənədin birinci oxunuşda müzakirəsində deputatların səsləndirdikləri qeyd və təkliflərə komitənin münasibətini diqqətə çatdırıb və vurğulayıb ki, qanun layihəsinin qəbulundan sonra onun icrası çərçivəsində tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə şəxslərin yeni qida normaları hazırlanacaq. Məruzəçi həmin müəssisələrdə gücləndirilmiş qida rasionunun tətbiq olunması fikri ilə bağlı vurğulayıb ki, təhsil və sosial sahəyə aid müəssisələrdə şəxslərin qalma müddətindən və yaşından asılı olaraq, tibb müəssisələrində isə xəstələrin yaşından və xəstəliyindən asılı olaraq yeni qida normalarının təsdiq edilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

"Pambıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev diqqətə çatdırıb ki, birinci oxunuşda layihə barədə ətraflı məlumat verilib. Komitə sədri qeyd edib ki, layihənin ikinci oxunuşunda da sənədlə bağlı komitəyə heç bir təklif daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, birinci oxunuşda layihə ilə bağlı ətraflı məlumat verilib. Dəyişikliklərin qısa mahiyyətini çatdıran məruzəçi vurğulayıb ki, sənəddə bütün səhmləri dövlətə məxsus müəssisələrin səhmlərinin (növbəti səhmlərinin) buraxılışı və yerləşdirilməsi prosedurları sadələşdirilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

*"Azərbaycan"*

# Ölkədə yaşanan siyasi həmrəyliyin təcəssümü













Siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərləri Azərbaycan cəmiyyəti tərəfindən artıq formalaşmış demokratik ənənə kimi qəbul olunur.

Prezident İlham Əliyevin təşəbbüsü ilə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində siyasi partiya sədrlərinin birgə səfərləri siyasi müstəvidə tərəflər arasında yaşanan etibarlı münasibətlərin göstəricisidir. Odur ki, müsbət ənənəyə çevrilmiş sözügedən səfərlər artıq ölkənin siyasi gündəliyinin ayrılmaz parçasıdır. Təsadüfi deyil ki, milli həmrəylik təzahürü ilə təcəssüm olunan sözügedən demokratik təcrübə ictimaiyyət tərəfindən təqdir olunur və dəstəklənir.

AZƏRTAC xəbər verir ki, iyunun 3-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin sayca yeddinci (daha öncə Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran, Xankəndi və Laçın) olan növbəti birgə səfəri baş tutub.

Son illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi olaraq müxtəlif səpgili layihələr icra edilir. Siyasi partiya sədrlərinin, habelə ölkədə tanınmış alim, politoloq və qələm sahiblərinin iştirakı ilə təşkil olunan çoxsaylı görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və digər bu kimi layihələr mövcud istiqamətdə görülən işlərin sadəcə bir parçasıdır. Bütün bu təşəbbüslər demokratik ənənələri daha da dərinləşdirir və siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət edir.

Budəfəki birgə səfərin ünvanı Cəbrayıl və Zəngilandır. Səfərdə ümumilikdə 70 nəfərdən artıq şəxs iştirak edib. 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin iştirakı ilə keçirilmiş səfərin proqramı kifayət qədər zəngin və maraqlı idi.

Səfər çərçivəsində iştirakçılara Horadiz şəhərinin yaxınlığında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib və düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək imkanı yaradılıb.

Daha sonra səfər iştirakçıları üçün Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən Cəbrayıl şəhərinin giriş hissəsində işğal zamanı düşmənin dağıtdığı evlərin qalıqları, Cəbrayıl şəhər yaşayış kompleksi və Mehdi Mehdizadə adına tam orta məktəb ilə tanışlıq, həmçinin şəhərin baş planının təqdimatı keçirilib.

Səfər çərçivəsində iştirakçılar Cəbrayılda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı haqqında geniş məlumat əldə ediblər. Daha sonra qonaqlar üçün Zəngilanın Məmmədbəyli kəndi, Zəngilan şəhər məscidi, Zəngilan Konqres Mərkəzi, 104 mənzilli yaşayış kompleksi və Oxçuçay üzərində yerləşən "Zəngilan" SES-ə ekskursiyalar təşkil olunub.

Siyasi partiya sədrləri ilə birgə səfərdə iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasilərin qarşısında çıxış edərək, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində ötən dövr ərzində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam əməkdaşlığın və həmrəylik mühitinin siyasi sabitliyin və demokratik münasibətlərin əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, mövcud istiqamətdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə əldə olunmuş bütün uğurların əsasını təşkil edir, həmçinin 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə Azərbaycan xalqının əzmkarlığı ilə yanaşı, cəmiyyətimizdə yaşanan milli həmrəyliyi və birliyi təcəssüm etdirir.

Cəbrayıl və Zəngilanın timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətinin nümayişi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bir müddət sonra Qarabağ dünyanın ən füsunkar ünvanlarından biri olacaq. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Böyük Qayıdış Proqramı bu cür nəticələrin əldə olunması üçün müstəsna zəmin yaradır.

Səfər iştirakçılarına bildirilib ki, bölgənin turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.



# Yaponiyada "Ekspo 2025" çərçivəsində Azərbaycan Milli Günü keçiriləcək

Yaponiyada səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi, ölkəmizin "Ekspo 2025" üzrə baş komissarı Anar Ələkbərov Yaponiyanın regionların inkişafı naziri, eləcə də "Ekspo 2025" üzrə nazir Yoşitaka İto ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında inkişaf etməkdə olan siyasi-iqtisadi, humanitar əlaqələrin əhəmiyyəti vurğulanıb, regionlararası əməkdaşlıq və digər sahələrdə birgə layihələrin perspektivləri müzakirə olunub.

Ölkəmizin "Ekspo 2025"-də fəal iştirakına və bununla da dünya sərgisinə verdiyi töhfəyə görə minnətdarlığını bildirən Yoşitaka İto Azərbaycan milli pavilyonunun Osaka sərgisində ən seçilənlər və ziyarət edilən pavilyonlar sırasında olduğunu vurğulayıb. Osakada "Ekspo 2025" çərçivəsində iyunun 5-də keçiriləcək Azərbaycan Milli Günü münasibətilə təbriklərini çatdıran Yoşitaka İto, Azərbaycan və Yaponiyanın bir sıra şəhərləri arasında gələcək əməkdaşlığın da əlaqələrin genişlənməsinə töhfə verəcəyini bildirib.

Azərbaycanın Osakadan əvvəl Milan və Dubay kimi dünya sərgilərində də müstəqil milli pavilyonla təmsil olunduğunu qeyd edən Anar Ələkbərov ölkəmizin Ekspo hərəkatına hər zaman öz töhfəsini verdiyini bildirib. Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işlərinin aparıldığını diqqətə çatdıran Anar Ələkbərov, ölkədəki bu cür genişmiqyaslı layihələrlə yanaşı, dünya sərgilərində təmsil olunmağın Azərbaycanın Ekspo hərəkatına verdiyi önəmin göstəricisi olduğunu vurğulayıb.

Qeyd edək ki, Yaponiyanın Osaka şəhərində aprelin 13-dən fəaliyyətə başlayan "Ekspo 2025" dünya sərgisi oktyabrın 13-dək davam edəcək. 2000-ci ildən Ekspo sərgilərində uğurla iştirak edən Azərbaycan bu il də milli pavilyonla təmsil olunur. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyon "Dayanıqlı inkişafa doğru yeddi körpü" (Seven bridges for sustainability) mövzusunu əhatə edir. İyunun 5-də keçiriləcək Azərbaycan Milli Günü çərçivəsində isə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunacaq.

# Regionun söz sahibi

**Azərbaycan hər zaman zəngin təbii ehtiyatlarına və strateji coğrafi mövqeyinə görə dünyanın diqqət mərkəzində olub. Bu maraq müxtəlif dövrlərdə fərqli xarakter daşıyıb. Belə ki, müstəqilliyin ilk illərində ölkədəki ictimai-siyasi qeyri-sabitlik xarici ölkələr və investorlar üçün ciddi tərəddüdlər yaradırdı. Yatırımların təhlükəsizliyi təmin olunmadığından iqtisadi əməkdaşlıq imkanları məhdud idi.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın israrlı çağırışı ilə yenidən hakimiyyətə qayıdışı vəziyyəti köklü şəkildə dəyişdi. Qısa müddət ərzində ölkədə sabitlik və əlverişli biznes mühiti yaradıldı. Bu da Azərbaycana maraq göstərən ölkələrin və investorların sayının artmasına səbəb oldu. Nəticədə Azərbaycan böyük sərmayələrin cəlb edildiyi mühüm iqtisadi məkana çevrildi. Hazırda ölkəmizin uğurlu enerji siyasəti Azərbaycanın hüdudlarından kənara çıxıb. Regional çərçivədə başlayan əməkdaşlıq illər keçdikcə coğrafiyasını genişləndirərək beynəlxalq miqyas alıb. Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməsi əməkdaşlıq əlaqələrinin genişlənməsində öz sözünü deyir. Bu gün ölkəmizdə dünya səviyyəli tədbirlərin keçirilməsi ənənə halını alıb.

Azərbaycanın uzun illərdir Beynəlxalq Neft və Qaz Sərgisinə evsahibliyi etdiyini diqqətə çatdıran K.Bayramov qeyd edib ki, Bakı Enerji Həftəsi isə öz növbəsində enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi mötəbər platformadır: "Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları bir yerə toplayır. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən növbəti tədbirlərdə isə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi iştirak edir. Forum çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar bu sahədə yeni əməkdaşlıqların qurulması, təcrübə mübadiləsi və qarşıdakı dövr üçün inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək edir. İyunun 2-də Prezident İlham Əliyev "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"unun rəsmi açılış mərasimində iştirak edərək bildirib ki, biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırıb: "Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib. Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3600 kilometrlik "Cənub qaz dəhlizi"dir. Əlbəttə, bir çox digər ölkənin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır".

Deputat vurğulayıb ki, uğurla həyata keçirilən enerji siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirib. Bu bir reallıqdır ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır. Ölkəmizin Avropa İttifaqı, həmçinin quruma üzv olan dövlətlərlə enerji sahəsində əməkdaşlığı yüksələn xətlə inkişaf edir.

Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin iştirakçılarına müraciətində mühüm məqamlara toxunub. Dövlət başçısı xatırladıb ki, ötənilki forumda çıxışı zamanı iştirakçılara Azərbaycanın səkkiz ölkəyə təbii qaz ixrac etdiyini bildirib. Bu gün isə həmin ölkələrin sayı 12-yə çatıb və bu, hələ də son deyil. Azərbaycan ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindədir. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib: "Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük. Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir. Hər kəs üçün uğurlu vəziyyət yaranır və biz hər zaman istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balansına diqqət yetirmişik. Çünki, zənnimcə, bu amil gələcək enerji əməkdaşlığı baxımından olduqca vacibdir".

K.Bayramov əlavə edib ki, Azərbaycan neft-qaz sahəsində bütün xarici tərəfdaşlarla əməkdaşlıqda və enerji resurslarının ixracında uğurlu nümunə yaradıb. Hazırda Azərbaycan "yaşıl enerji" ixracına dair layihələr həyata keçirməklə özünün neft-qaz tarixindəki uğurunu təkrarlayır və bu dəfə dünyaya təmiz, dayanıqlı gələcəyin enerji modelini təqdim edir. Göründüyü kimi, Azərbaycanın "yaşıl enerji" sahəsindəki təşəbbüsləri və layihələri ölkənin enerji sektorunda yeni dövrün başlandığını göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində bir sıra görüşlər keçirib

İyunun 3-də xarici işlər naziri Ceyhun Bayramov Keniyaya səfəri çərçivəsində bu ölkənin Prezidenti Vilyam Samoei Ruto tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə tərəflər yüksəksəviyyəli qarşılıqlı səfərlərin, siyasi dialoqun və qurumlararası təmasların əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıblar.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətinə diqqət çəkərək, tərəfdaşlığın bütün sahələrdə möhkəmlənəcəyinə dair əminlik ifadə ediblər.

Bununla yanaşı, iqtisadiyyat, enerji, kənd təsərrüfatı, təhsil, mədəniyyət, turizm və idarəçilik sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

İnformasiya və kommunikasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat, enerji və faydalı qazıntılar sahələrində də əməkdaşlıq üçün geniş imkanların olduğu və konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə birgə biznes-forumların və ticarət missiyalarının təşkilinin faydalı olacağı qeyd edilib.

Afrika ölkələrinin Azərbaycanın xarici siyasətində əhəmiyyətindən bəhs olunub, Keniya ilə yanaşı, qitənin digər dövlətləri ilə əməkdaşlığın inkişafında maraqlı olduğu diqqətə çatdırılıb.

Ölkəmizin uğurlu COP29 tədbirinin və qəbul olunmuş qərarların əhəmiyyəti, 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhər Forumu çərçivəsində iki ölkə arasında əməkdaşlıq əlaqələri nəzərdən keçirilib.

Görüşdə gündəlikdə duran digər aktual məsələlər və qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

❖❖❖

İyunun 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri, xarici işlər və diaspor naziri Musalia Mudavadi ilə görüşüb.

Tərəflər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Geniştərkibli görüş zamanı Azərbaycan-Keniya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər müzakirə edilib.

Diplomatik münasibətlərin 20 illiyinin qeyd olunduğu Azərbaycan-Keniya əlaqələrinin qarşılıqlı faydalı əməkdaşlığa əsaslandığına dair həmfikirlik ifadə olunub, ali və yüksəksəviyyəli səfərlərin dinamikasının saxlanılması, xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin müntəzəmliyinin təmini və ikitərəfli hüquq-müqavilə bazasının gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Keniya arasında BMT, Qoşulmama Hərəkatı və BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP29) kimi çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu diqqətə çatdırılıb.

İqtisadiyyat, ticarət, investisiyalar və ətraf mühit məsələlərinə toxunularaq, informasiya və kommunikasiya texnologiyaları, enerji və təbii ehtiyatlar, kənd təsərrüfatı və turizm, iqlim dəyişikliyinə qarşı mübarizə və yaşıl transformasiya sahələrində əməkdaşlıq üçün böyük potensial və imkanların olduğu bildirilib.












Dövlət xidmətlərinin əlçatanlığının təmini və asanlaşdırılması sahəsində Azərbaycanın unikal layihəsi olan "ASAN xidmət" ilə Keniyanın "Huduma Proqramı" arasında intensivləşən əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Azərbaycan və Keniya arasında təhsil və mədəniyyət sahələri üzrə mübadilələrin artırılmasının xalqlarımızın bir-birini daha yaxından tanıması və anlamasındakı rolundan bəhs olunub.

Azərbaycan Respublikasının Keniyanın paytaxtı Nayrobi şəhərində səfirliyinin rəsmi fəaliyyətə başlamasının ikitərəfli əməkdaşlığımızın daha sistematik və əhatəli şəkildə həyata keçirilməsinə töhfə verəcəyinə dair əminlik ifadə olunub.

Görüş zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

❖❖❖

İyunun 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Parlamenti Senatının sədri Amason Ceffa Kinqi ilə görüş keçirib.

Görüşdə Azərbaycan və Keniya arasında diplomatik əlaqələrin qurulmasından ötən 20 il ərzində formalaşan münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər parlamentlərarası əməkdaşlığın, xüsusilə dostluq qrupları və komitələr səviyyəsində birbaşa təmasların təşviq edilməsinin əlaqələrin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacağını vurğulayıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanın çoxtərəfli platformalarda, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində Keniya ilə mövcud məhsuldar əməkdaşlığı yüksək qiymətləndirdiyini bildirib.

Görüşdə Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və 2026-cı ildə keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) verilən önəm qeyd edilərək, bu təşəbbüslərin qlobal gündəliyə göstərdiyi töhfə yüksək dəyərləndirilib.

Sonda tərəflər parlamentlərarası dialoqun daha da gücləndirilməsi və qarşılıqlı səfərlərin təşviqi vasitəsilə Azərbaycan-Keniya münasibətlərinin möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

❖❖❖

İyunun 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində Keniya Respublikası Parlamentinin Nümayəndələr Palatasının sədri Moses M.Vetang'ula ilə görüşüb.

Görüşdə Azərbaycan-Keniya münasibətlərinin müxtəlif aspektləri, parlament diplomatiyasının əməkdaşlığımızın inkişafında rolu, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə edilib.

Ölkəmizin Keniya Respublikası ilə əlaqələrin inkişafına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verdiyi bildirilib.

İkitərəfli münasibətlərimizin parlament ölçüsünün, parlament diplomatiyası vasitəsilə qanunverici orqanlar arasında əlaqələrin gücləndirilməsinin xalqlarımız arasında mübadilələri genişləndirəcəyinə dair inam ifadə olunub.

Ölkəmizin COP29 sədrliyi zamanı iqlim dəyişmələri ilə mübarizə sahəsində qəbul edilmiş qərarların əhəmiyyəti, bununla yanaşı 2026-cı ildə Azərbaycanda keçiriləcək Ümumdünya Şəhər Forumu çərçivəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə regionda mövcud vəziyyət, ölkəmizin bərpa, yenidənqurma, minatəmizləmə və sülh gündəliyi barədə ətraflı məlumatlandırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

❖❖❖

İyunun 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Keniya Respublikasına rəsmi səfəri çərçivəsində BMT-nin Nayrobi ofisinin baş direktoru Zeynəb Hava Banqura ilə görüşüb.

Görüşdə Azərbaycan-BMT əməkdaşlığının müxtəlif aspektləri, Afrika ölkələri ilə bağlı mümkün birgə təşəbbüslər, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi, habelə postmünaqişə dövründə regional vəziyyət müzakirə olunub.

Azərbaycanın BMT və onun ixtisaslaşmış qurumları ilə faydalı əməkdaşlıq gündəliyinin mövcudluğu, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tərəfdaşlığımızda xüsusi yer tutduğu, ölkəmizin dayanıqlı inkişaf gündəliyinin icrası istiqamətində könüllü şəkildə mütəmadi hesabatlar təqdim etməsinin bu istiqamətə verdiyimiz əhəmiyyətin göstəricisi olduğu qeyd edilib.

Afrika ölkələri ilə əməkdaşlığın irəlilədilməsinin xarici siyasət prioritetlərimizdən biri olduğu, bu istiqamətdə BMT çərçivəsində indiyədək bir sıra təşəbbüslərin həyata keçirildiyi və bu əməkdaşlığı davam etdirmək niyyətində olduğumuz bildirilib.

Ölkəmizdə keçirilən COP29 çərçivəsində qəbul olunan qərarların iqlim dəyişikliyi ilə mübarizədə maliyyə mövzusunun irəlilədilməsi baxımından əhəmiyyətindən bəhs olunub. Bu çərçivədə BMT-nin Ətraf Mühit Proqramı ilə əməkdaşlıq məsələlərinə də toxunulub.

Eyni zamanda 2026-cı ildə ölkəmizdə keçiriləcək Ümumdünya Şəhər Forumu çərçivəsində BMT ofisi, xüsusilə də "UN-Habitat" ilə əməkdaşlıq planları nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi keçmiş münaqişə, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri barədə ətraflı məlumatlandırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

*AZƏRTAC*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Birlik və əməkdaşlıq türk dünyasını daha da gücləndirir

Türk xalqları milli kökləri, ortaq dəyərləri, mədəniyyəti, dili, dini ilə bir-birinə sıx bağlıdır. Dünyanın harasında yaşamalarından asılı olmayaraq, hər bir türk övladı bu bağlılığı hiss edir. Odur ki, bir-birimizin nə sevincinə, nə də kədərinə biganə qala bilirik.

Türk dövlətlərinin birində xoş hadisələr baş verəndə digərləri də sevinir, fəlakət üz verəndə isə narahatlıq doğurur. Bunu son illər baş verən hadisələrdə bir daha gördük. Azərbaycan 2020-ci ildə Vətən müharibəsində tarixi qələbə qazananda, 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatı keçirərək suverenliyini tam bərpa edəndə bizim sevincimizə, qürurumuza ilk növbədə bütün türk dünyası şərik oldu. Yaxud Türkiyədə meşə yanğınları başlayanda və onlar getdikcə ciddi təhlükəyə çevriləndə, eləcə də dəhşətli zəlzələ baş verəndə türkiyəli qardaşlarımız ilk dəqiqələrdən xalqlarımız arasında mənəvi bağlılığı gördülər. O günlər təbii fəlakətlərin ağrı-acısını, itkilərini yaşayan, evindən, isti ocağından məhrum olan qardaş-bacılarımıza yalnız maddi yardım göstərməklə kifayətlənmədik. Türk dövlətləri sırasında önəmli mövqeyi olan Azərbaycanın peşəkar xilasediciləri özlərini anında fəlakət baş vermiş yerlərə yetirdilər və sonadək əllərindən gələni əsirgəmədilər.

Təqdirəlayiqdir ki, türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlıq gündən-günə inkişaf edir. Bu, çoxşaxəli əlaqələr Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyətinə müsbət təsir göstərir, onun daha da güclənməsinə rəvac verir. Yeri gəlmişkən xatırladaq ki, təşkilat 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilmiş Zirvə görüşündə imzalanmış Naxçıvan sazişinə əsasən yaradılıb. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş bu beynəlxalq təşkilatın yaradılmasında məqsəd türk dövlətləri arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsidir. Sevindiricidir ki, təşkilatın yaradılmasından ötən illər ərzində bu böyük məqsəd yolunda inamla və uğurla irəliləyən üzv ölkələr siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya, kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığı genişləndiriblər. Həmçinin bu gün zəngin maddi və mənəvi irsimizin tədqiqində və təbliğində TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası kimi qurumların rolu da xüsusi vurğulanmalıdır.



Türk dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. 2024-cü il fevralın 14-də Prezident İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində türk dünyası ilə əməkdaşlığın əhəmiyyətini belə qeyd etmişdir: "Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik". Dövlət başçısı daha sonra bildirdi ki, TDT-yə üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir: "Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Ölkəmiz Türk Dövlətləri Təşkilatının fəal və təşəbbüskar üzvüdür. Türk dünyasının birliyi, həmrəyliyi, sıx birləşməsi, siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi istiqamətində Azərbaycanın atdığı addımlar türk dövlətləri tərəfindən yüksək dəyərləndirilir.

Azərbaycanın təşəbbüsü ilə ötən il Şuşada keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşü türk dünyasının birliyinin güclənməsində əhəmiyyətli addım kimi tarixə yazıldı: "Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir". Dövlətimziin başçısı İlham Əliyev bu sözləri mayın 21-də Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatı dövlət başçılarının ikinci qeyri-rəsmi Zirvə görüşündə çıxışında demişdir. Daha sonra bildirmişdir ki, Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard dollardan çox sərmayə qoyub. Həmçinin qeyd etmişdir ki, bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur: "Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## *Seneqallı nazir:* "Azərbaycanla Seneqal arasında əməkdaşlıqda yeni istiqamət formalaşıb"

"Biz şadıq ki, Azərbaycanın "ASAN xidmət" modelini öyrənib onunla yaxından tanış olacağıq. Çalışırıq ki, Azərbaycanda olmağımızdan ən yaxşı şəkildə faydalanaq. Bildirməliyəm ki, yaxın keçmişdə Seneqalda bu sahədə müəyyən boşluqlar yaranmışdı. Biz çox səylər göstərməli olduq ki, bugünkü təşəbbüsümüz həyata keçirilsin. Artıq dövlət xidməti üçün yeni istiqamətlər formalaşdırmışıq".

AZƏRTAC xəbər verir ki, bunu Seneqal Respublikasının dövlət idarəçiliyi və dövlət xidmətlərində islahatlar naziri Olivye Bukal Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Seneqal Respublikasının Dövlət İdarəçiliyi və Dövlət Xidmətlərində İslahatlar Nazirliyi arasında anlaşma memorandumunun imzalanması mərasimində çıxış edərkən deyib.

Seneqallı nazir bu məqsədlərə çatmaq üçün inzibati və administrativ xidmətlərin modernləşdirilməsinə üstünlük verilməli olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bunu həyata keçirmək dövlət və vətəndaş arasında inamın formalaşdırılması ilə nəticələnəcək: "Bununla bağlı axtarışda olarkən gördük ki, belə asan model var və bu, bizim üçün ilham mənbəyi ola bilər. Çalışacağıq ki, işçi qrupu formalaşdıraq və memorandumda qeyd edilən bəndləri həyata keçirək. Bu gün Azərbaycanın Dövlət Agentliyi ilə anlaşma memorandumunun imzalanması bizim üçün şərəf və qürur hissidir. Artıq Azərbaycanla Seneqal arasında əməkdaşlıqda yeni istiqamət formalaşıb. Bu memorandum əməkdaşlığımızın güclənməsinə töhfə verəcək. Ümid edirəm ki, bizim əməkdaşlığımız yalnız memorandumda qeyd edilənlərlə kifayətlənməyəcək. Başqa sahələrdə də əməkdaşlıq edəcəyik. Çünki bizim Şərq ölkələrindən öyrənəcəyimiz çox şey var. Biz çalışacağıq ki, deyilənləri reallaşdıraq", - deyə seneqallı nazir bildirib.

# Sarsılmaz dostluğun və qardaşlığın ifadəsi



Azərbaycan hər sahədə dinamik inkişaf edir. İqtisadi yüksəliş, ictimai-siyasi sabitlik, vətəndaş birliyi və həmrəyliyi, beynəlxalq aləmdə qazanılan uğurlar, əldə olunan tarixi qələbələr ölkəmizi dünyaya demokratik, sivil, azadlıqsevər bir dövlət kimi təqdim edir. Prezident İlham Əliyevin beynəlxalq hüquq normalarına əsaslanan balanslaşdırılmış siyasəti, insan haqlarının, təhlükəsizliyin təmin edilməsinə yönələn fəaliyyəti nəinki sülhsevər ölkələr, xalqlar tərəfindən dəstəklənir, həm də bu əməllər yüksək qiymətləndirilir.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, qazanılan uğurlar düşünülmüş siyasətin, güclü, davamlı inkişaf edən iqtisadiyyatın nəticəsidir və xalqın birliyinin, ölkənin gələcək inkişafına dəstəyinin ifadəsidir. Xalq-iqtidar birliyi bu gün görülən bütün işlərdə, həyata keçirilən bütün tədbirlərdə özünü aydın göstərir və bu, daha uğurlu gələcəkdən xəbər verir. "Bu birlik, həmrəylik qardaş dövlətlərə münasibətdə, dost ölkələrlə əməkdaşlıqda da parlaq nəticələrini verir və Azərbaycanın iqtisadi-siyasi, mənəvi həyatını mənalandırır, təhlükəsizliyini daha da möhkəmləndirir. Yaxın dövrdə bir neçə dövlət rəhbərinin - Almaniyanın, İran İslam Respublikasının, Gürcüstan, Pakistan, Türkiyə liderlərinin, digər ölkələrin baş nazirlərinin, parlament sədrlərinin, siyasi xadimlərin ölkəmizə səfərləri, imzalanan mühüm sənədlər, Bakıda və regionlarda keçirilən beynəlxalq əhəmiyyətli görüşlər, forumlar deməyə əsas verir ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir, dövlətimizə böyük hörmət və ehtiram bəslənilir. Cənab İlham Əliyevin son günlərdə Xocalıda, Ağdamda, Ağsuda, İsmayıllıda, Laçında olması, səfərlər zamanı çox mühüm obyektlərin, müəssisələrin təməlinin qoyulması, açılışının keçirilməsi, işlərin gedişi ilə tanışlıq və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və həyata keçirilməsi üçün tapşırıqların verilməsi, möhtəşəm tikinti, bərpa-quruculuq işlərinin uğurla davam etdirilməsi, insanlarla səmimi görüşlər, təkliflərə, istəklərə əməl olunması birliyimizə, inkişafımıza zəmin olmaqla bərabər, qardaş dövlətlər tərəfindən də dəstəklənməyimizə, qiymətləndirilməyimizə bir zəmanətdir", - deyə deputat əlavə edib.

Komitə sədri qeyd edib ki, bu gün nəinki dost, qardaş ölkələr, eləcə də qələbələrimizə, uğurlarımıza sevinməyən, nailiyyətlərimizə hər vasitə ilə kölgə salmaq istəyən dövlətlər belə Azərbaycanda baş verən hadisələri, yenilikləri, inkişafı, həyata keçirilən tədbirləri diqqətlə izləyir və onlara öz baxışlarından qiymət verirlər. Ermənipərəst qüvvələrin, xaricdə və daxildə inkişafımıza kölgə salmağa çalışanların cəhdlərinə, yalan, böhtan kampaniyalarına baxmayaraq, Azərbaycan tutduğu düzgün yoldan dönmür, öz amallarının, əməllərinin həyata keçirilməsi uğrunda mübarizədədir, onu dəstəkləyənlərin, haqlı mübarizəsinə önəm verənlərin əhatəsindədir.

T.Rzayev xatırladıb ki, Müstəqillik Günündə üç qardaş ölkənin - Türkiyə, Pakistan və Azərbaycanın dövlət rəhbərlərinin bir yerdə - uzun illər erməni təcavüzkarlarının işğalı altında qalmış, dağılmış, məhv edilmiş, bu gün isə gülüstana çevrilən Laçında olmaları dünyaya dostluq və qardaşlıq mesajı verməklə həm də düşmənlərimizə bir gözdağıdır: "Laçın Zirvə görüşü bir daha göstərdi ki, Azərbaycan-Türkiyə-Pakistan münasibətləri və strateji tərəfdaşlığı bu gün yüksələn xətlə inkişaf edir. Tarixi-dini köklərə, qardaşlıq, dostluq münasibətlərinə arxalanan bu dövlətlər hər an - sevincli və çətin günlərdə bir-birinin yanındadır, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində daim eyni mövqedən çıxış edir və qarşılıqlı əməkdaşlığa böyük önəm verirlər. Ölkə liderlərinin bir yerdə olması - Zirvə görüşünü Müstəqillik Günündə Laçında keçirmələri sarsılmaz dostluğun və sağlam, möhkəm əməkdaşlığın nümunəsidir. Sayca ikinci olan bu görüşə böyük önəm verən dövlətimizin rəhbəri bildirmişdir: "Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır... Əminəm ki, biz bu ənənəni davam etdirəcəyik".

Deputatın sözlərinə görə, üç qardaş dövlətin birliyi, əməkdaşlığı xalqların milli maraqlarına, iqtisadi inkişafa, demokratiyaya, təhlükəsizliyə və sülhə xidmət edir. Orta ideyaları bölüşən və eyni mövqedən çıxış edən üç ölkə 350 milyon əhaliyə, 1.5 trilyon dollar iqtisadiyyata, eyni zamanda müasir və yüksək imkanlara malik hərbi qüvvədir. Bu qüvvəni, bu dostluğu sarsıtmaq mümkün deyil, çünki üçtərəfli əməkdaşlıq platforması beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, sülhə, sabitliyə, təhlükəsizliyə və tərəqqiyə xidmət edir. Üç qardaş ölkənin daim bir-birinin yanında olması məhz bu amallardan qaynaqlanır. 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri zamanı Türkiyə və Pakistan hər an Azərbaycanın haqq səsinə səs verdilər, mənəvi dəstəklərini əsirgəmədilər. Azərbaycan da həmişə qardaş dövlətlərin yanında olduğunu nümayiş etdirib. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə sarsılmaz dostluğunun təzahürüdür. Siyasi, iqtisadi, mədəni, humanitar, səhiyyə, təhsil, sosial və digər sahələrdə imkanların birləşdirilməsini özündə ehtiva edən bu sənəd həm də sabitliyin və milli təhlükəsizliyin təmin edilməsi üçün hər iki dövlətə hüquqi əsaslar yaradır, ölkələrin ərazi bütövlüyünə və suverenliyinə qarşı yarana biləcək təhlükələrə birgə müdafiəni təmin edir. Azərbaycan-Türkiyə əməkdaşlığı yalnız bölgəyə deyil, geniş coğrafiyanın enerji xəritəsinə yeni həyat verib. Enerji təhlükəsizliyinin təmin olunmasında ölkələrin rolu əvəzolunmazdır və bu sahədə mühüm layihələr hazırlanıb. Nəqliyyat sahəsində "İnkişaf yolu", "Orta dəhliz" və "Şimal-Cənub nəqliyyat dəhlizi" kimi layihələr öz töhfəsini verəcək və iqtisadi inkişafı sürətləndirəcək. Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub. Pakistan iqtisadiyyatına isə 2 milyard ABŞ dolları qoymağa hazırdır.




Komitə sədri vurğulayıb ki, Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin Laçında üçtərəfli Zirvə görüşü tarixi əhəmiyyətə malikdir: "Bu görüş ölkələrin iqtisadi, siyasi, mədəni, eləcə də bütün sahələrdə hərtərəfli əlaqələrinin, əməkdaşlığının inkişafına yeni imkanlar yaradır. Cənab İlham Əliyev çıxışında qeyd etdi ki, siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq. Müstəqilliyimizin ildönümü günündə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşünün işğaldan azad olunmuş Laçında keçirilməsi və üç dövlətin bayraqlarının yanaşı dalğalanması rəmzi məna daşıyır. Sarsılmaz birliyimizi, inkişafımızı, sülh, azadlıq uğrunda mübarizəmizi dünyaya nümayiş etdirir. Həm də dünyaya bir mesajdır ki, Azərbaycan, Türkiyə və Pakistan regionda böyük güc mərkəzidir və bu güclərlə hesablaşmaq lazımdır. Bu güc isə dövlətlərin müstəqilliyinin və suverenliyinin qorunmasına hesablanıb. Cənab Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Bəli, üç qardaş dövlət, üç müdrik lider, üç dost xalq birləşib və böyük gücə çevrilib. Məhəmməd Şahbaz Şərif də bu gücün qüdrətinə yeni bir məna verir, "biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin".

T.Rzayev qeyd edib ki, bu səsin Laçından - uzun illər işğal altında qalan, viran edilən, ancaq bu gün gülüstana çevrilən, abadlaşan, qoynunda beynəlxalq hava limanı salınan bir məkandan səsləndirilməsi qürurvericidir. Prezident İlham Əliyev dünyaya yeni bir mesaj verir: "Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq".

Hər üç liderin məqsədi, amalı, istəyi birdir: Dünyada sülh, əmin-amanlıq, inkişaf və təhlükəsizlik olsun! Bu amallar - haqq, ədalət, bəşəriyyətin xoşbəxtliyi uğrunda mübarizə aparanlar isə yenilməzdir, qalibdirlər. Dünya bunu üç qardaş dövlətin - Türkiyənin, Azərbaycanın, Pakistanın timsalında aydın görür və xalqlarımız bu birliyin əbədiliyinə, daim qalib gələcəyinə inanır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın xarici siyasətinin uğurları

# Bakı Enerji Forumunun ilk günü başa çatıb

Bu gün Bakı Konqres Mərkəzində Xəzər regionunun ən böyük tədbiri olan 30-cu Bakı Enerji Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, konfransda həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri gündəmdə olub.







Forumun ilk günündə nazirlər səviyyəsində "Dayanıqlı və davamlı enerji gələcəyi naminə qlobal əməkdaşlıq", "Dayanıqlı enerji ekosisteminə aparan yol", "Geoloji Kəşfiyyat - resursların aşkar olunmasında innovativ texnologiya üsulları", "Hasilat və Əməliyyatlar - innovasiya və dayanıqlıq ilə səmərəliliyin artırılması", "Yaşıl enerji - Xəzər regionunda potensialının reallaşdırılması" mövzularında panel müzakirələri keçirilib.

Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə "Dayanıqlı və davamlı enerji gələcəyi naminə qlobal əməkdaşlıq" mövzusunda plenar sessiya baş tutub. Sessiyada çıxış edən Pərviz Şahbazov bildirib ki, ötən il Azərbaycanın neft ixracının 75 faizdən çoxu, təbii qaz tədarükünün isə 51 faizi Avropa ölkələrinə yönəlib.

"Qısa müddət ərzində boru kəməri ilə qaz nəqlinin coğrafi əhatəsinə görə dünyada qabaqcıl mövqe tutan Azərbaycan Avropa İttifaqına (Aİ) boru kəməri ilə nəql olunan qazın həcminə görə 7 faiz payla dördüncü təchizatçıdır. Bu, bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün növ enerji resurslarına rasional və balanslaşdırılmış yanaşması, eləcə də ixrac infrastrukturunun inkişafına yönəlmiş qətiyyətli siyasəti ölkəmizin müasir enerji xəritəsində strateji mövqeyini möhkəmləndirərək qeyri-sabit dünyada etibarlı enerji təhlükəsizliyinin nümunəvi modelini formalaşdırıb", - deyə nazir əlavə edib.

O qeyd edib ki, bu il 240 meqavat gücündə külək elektrik stansiyası istifadəyə veriləcək, 200 meqavat gücündə üç günəş elektrik stansiyasının tikintisinə başlanılacaq.

"Planlarımız bu göstəricini 2030-cu ildə 38 faizə, 2035-ci ildə isə 42,5 faizə yüksəltməkdir. Növbəti 5 il ərzində quruda və dənizdə yaradılacaq 6 giqavatdan çox "yaşıl enerji gücü"nün 4 giqavatı ixraca yönəldiləcək. Həmçinin "yaşıl enerji zonası" - Naxçıvanın 6 giqavat bərpaolunan enerji potensialının ən azı 1 giqavatı ixrac ediləcək. Azərbaycan Prezidentinin yaşıl enerjinin tədarükü və transsərhəd ötürülməsində ölkəmizin aparıcı mövqeyini təmin etməyə yönəlmiş strateji baxışına uyğun olaraq, hazırda Xəzər hövzəsini, Mərkəzi Asiya, Türkiyə və Avropanı əhatə edən genişmiqyaslı "yaşıl enerji dəhliz"ləri layihələri həyata keçirilir. Bu dəhlizlər Avropaya gələcəkdə təkcə yaşıl enerji, hidrogen deyil, həm də fiber-optik kabellərlə data nəql edəcək", - deyə nazir bildirib.

Azərbaycanın yaşıl enerji vasitəsilə Xəzərin enerji mərkəzi kimi inkişafında tamamilə yeni bir strateji səhifə açdığını deyən energetika naziri növbəti iki il ərzində 10 günəş və külək elektrik stansiyasının istismara verilməsi ilə bərpaolunan enerjinin inkişafının birinci mərhələsinin tamamlanacağını qeyd edib.

Nazirin sözlərinə görə, 2030-cu ilin sonunadək ümumi gücü 2700 meqavat olan külək-günəş elektrik stansiyalarının ölkənin enerji sisteminə inteqrasiyası nəticəsində ildə 1,5 milyard kubmetr təbii qaza qənaət ediləcək. Bu həcmlərin nəqli üçün Cənub Qaz Dəhlizi də daxil olmaqla, bölgədəki nəql infrastrukturlarının ötürücülük gücünün artırılması və zəruri zəmanətlərin təmin olunması vacibdir. Nazir, həmçinin son 30 il ərzində karbohidrogenlərin qlobal enerji balansında payının təxminən 5 faiz dəyişməsinə istinad edərək bildirib ki, alternativ enerji mənbələri mövcud mənbələri əvəz etmir, sadəcə, onları tamamlayır.

"Neft-qazın mühüm rolunun gələcəkdə də davam edəcəyini nəzərə alaraq, bu sahənin maliyyələşdirilməsi təxirə salınmamalı, enerji mənbələri, resursları, ticarət yolları və təchizat zəncirlərinin diversifikasiyası daim prioritet olmalıdır. İndi investorlar üçün aydın və proqnozlaşdırıla bilən, eyni zamanda, real və praqmatik siyasətlərin həyata keçirilməsi üçün ən münasib zamandır", - deyə P.Şahbazov bildirib.

Nazirin çıxışı zamanı qaz tədarükünün perspektivləri xüsusunda hazırda işlənməkdə olan beş layihə, eləcə də Bakı Enerji Həftəsi çərçivəsində TPAO, "Exxon Mobil Corporation", MOL, ITOCHU və "Gran Tierra Energy" şirkətləri ilə imzalanmış əməkdaşlıq sənədləri diqqətə çatdırılıb.

Pakistanın federal enerji naziri (neft divizionu) Əli Pərviz Malik çıxışında bildirib ki, Pakistan hazırda enerji səmərəliliyini və qənaətini artırmağa yönəlmiş bütöv bir strategiya hazırlayır.

"Biz daha çox inklüziv, dayanıqlı paradiqmaya, daha çox sənayeləşdirməyə doğru gedirik. Çalışmalıyıq ki, enerji siyasətimizi əlaqəli edək. Pakistanda 150 böyük enerji şəbəkəsi var. Ən böyük narahatlıq doğuran məsələ qaz sektorunu dayanıqlı etməkdir", - deyə pakistanlı nazir vurğulayıb.

O əlavə edib ki, Pakistan qaz ehtiyatlarının lokallaşdırılması prosesində göstərdiyi köməyə və dəstəyə görə Azərbaycana minnətdarlığını bildirir: "Son bir neçə ildə Pakistanın tədarükünün əhəmiyyətli hissəsi dost ölkələrin hesabına həyata keçirilib və ölkənin bununla bağlı təxminən 3-4 müqaviləsi var. Biz, ilk növbədə, yeni müqavilələrə qoşulmazdan əvvəl çalışırıq ki, götürdüyümüz öhdəlikləri yerinə yetirək. Eyni zamanda, kəşfiyyat və hasilatı stimullaşdırmağa çalışırıq. Pakistanın ən böyük qaz istehlakçısı enerji sektoru və məişət sektorudur. Biz məişət texnikası üçün enerji səmərəliliyi standartlarını tətbiq etməyə çalışırıq".

Türkiyənin enerji və təbii sərvətlər nazirinin müavini Ahmet Berat Çonkar nəzərə çatdırıb ki, Türkiyə 2053-cü ilə kimi 0 emissiya ilə bağlı öhdəlik götürüb.

O bildirib ki, qarşıya 2035-ci ilə qədər bərpaolunan enerji istehsalını 30 giqavatdan 120 giqavata qədər artırmaq hədəfi qoyulub ki, buna da 100 milyard dollardan çox investisiya tələb olunur.

"İlk nüvə stansiyasını istismara verəcəyik. Türkiyə idxal olunan enerji asılılığını azaltmaqdadır. Somalidə seysmik kəşfiyyat işlərimiz tamamlanmaq üzrədir. Türkiyə gündəlik 9,5 milyon kubmetr qaz hasil edir. "Osman qazi" yatağında gündəlik hasilatın 11 milyon kubmetr olacağı planlaşdırılır. Türkiyənin məqsədi qaz hasilatını gündəlik 40 milyon kubmetrə çatdırmaqdır", - deyə nazir bildirib.

Avropa Komissiyasının Enerji Platformasının işçi qrupunun və Beynəlxalq Əlaqələr İdarəsinin - Enerji üzrə baş direktoru Kristina Lobillo Borrero öz çıxışında bildirib ki, 2040-2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq əsas hədəfdir.

O bildirib ki, Avropa Komissiyası rəqabəti genişləndirməyə fokuslanıb.

"Etibarlı partnyorlar çox vacibdir, Azərbaycan buna çox gözəl örnəkdir. Həm bərpaolunan, həm də qazıntı yanacaqlarında Azərbaycan nümunəvi ölkədir. Avropa İttifaqı bütün beynəlxalq tədbirlərdə iştirak edir. Biz birlikdə şəffaflıq, təmiz texnologiya, təchizatın təhlükəsizliyi üzərində işləməliyik", - deyə o bildirib.

Bolqarıstanın energetika nazirinin müavini İva Petrova öz növbəsində diqqətə çatdırıb ki, Bolqarıstanda bərpaolunan enerji istehsalını artırmaq əsas məqsədlərdəndir və təhlükəsizlik vacibdir.

"Bolqarıstan Cənub Qaz Dəhlizinə (CQD) 2022-ci ildə qoşulub. Layihədə şaquli qaz infrastrukturunu inkişaf etdiririk. Rumıniyaya doğru genişləndirmə gedir və dəhlizin şaxələndirilməsində bu, önəmli addımdır. Enerji təhlükəsizliyində CQD böyük rol oynayır. Həm region təhlükəsizliyində, həm də CQD-də Azərbaycan etibarlı partnyor kimi çıxış edir", - deyə bolqar nazir müavini qeyd edib.

"Liderlərin çıxışları: Dayanıqlı enerji ekosisteminə aparan yol" adlı sessiyada əsas məruzəçi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf olub. O, çıxışında bütün həyata keçirilən tədbirlərin 2050-ci ilə qədər xalis sıfra nail olmağa təkan verdiyini vurğulayıb.

O bildirib ki, regionda enerji balansının yaranması üçün Azərbaycanın unikal imkanı var.

"Neft və qaz kəşfiyyatına investisiya qoyuruq, çünki 10 il sonra da ənənəvi yanacağa ehtiyac olacaq. Ancaq biz ən yaxşı texnologiyalardan istifadə edir və karbonsuzlaşdırmaya üstünlük veririk. Azərbaycan yalnız ənənəvi enerjiyə deyil, bərpaolunan enerjiyə də investisiya qoyur. Biz çalışırıq ki, partnyorlara günəş, külək və digər bərpaolunan enerjilərə investisiya qoymaq üçün imkan yaradaq. Azərbaycanda coğrafi məkan və enerji resurslarının mövcudluğu əlverişlidir. Enerjiyə tələbat isə getdikcə artmaqdadır. Biz bunu dayanıqlı tərzdə etməyə çalışırıq", - deyə o bildirib.

O əlavə edib ki, SOCAR ölkə hüdudlarından kənarda da fəaliyyətini davam etdirir: "Əlavə saziş imzalanacaq və beynəlxalq portfelimizə aktivlər əlavə ediləcək. Ölkəyə əlavə investisiyalar cəlb olunacaq. Neft və qaz istehsalına, o cümlədən bərpaolunan enerjiyə əlavə dəyərlər veriləcək. Elektrik enerjisinin ixrac infrastrukturunu yaratmağı düşünürük. Bu istiqamətdə Mərkəzi Asiya və Avropadakı partnyorlar ilə bir neçə sənəd imzalanıb. Qara dəniz ilə Türkiyədən Avropaya ixrac nəzərdə tutulur. Bu infrastruktur bir neçə ölkə arasında əməkdaşlığı vacib edir. Nikbinlik potensialımız daha yaxşı istifadə ediləcək".

Rumıniya Energetika Nazirliyinin dövlət katibi Pavel-Kasian Nitulesçu diqqətə çatdırıb ki, Rumıniya ilə Azərbaycan arasında münasibətlər uzunmüddətlidir.

"Bakı Enerji Forumu bir uğur hekayəsidir. Hər il Rumıniya bu beynəlxalq tədbirə dəvət olunur və biz birlikdə enerji sektorunun dinamikliyini təhlil edirik. Enerji sahəsi bizim siyasətin bir komponentidir. İnanıram ki, ölkələrimiz arasında regional əməkdaşlığın gücləndirilməsində böyük irəliləyiş əldə olunub. Adekvat infrastrukturun həyata keçirilməsi regionun təhlükəsizliyi üçün çox vacibdir. Bizim gələcək fəaliyyətimiz enerji sektoruna investisiyaların cəlb edilməsi və bu sahədə tənzimləyici çərçivənin qurulmasıdır. Biz potensialın həyata keçirilməsinə fokuslanmışıq və ölkəmizdə bunun üzərində daim çalışmışıq. Əlçatan və təmiz enerjinin təmin edilməsi vacibdir. Rumıniya, eyni zamanda Moldova və Ukrayna üçün də etibarlı bir partnyordur", - deyə rumıniyalı dövlət katibi bildirib.

"KazMunayGas" İdarə Heyətinin sədri Asxat Xasenov bildirib ki, Qazaxıstanda 76 milyon ton karbohidrogen rezervləri mövcuddur.

O bildirib ki, ikinci strateji sahə petrokimya sahəsidir.

"Biz həm yerli bazarı təmin etməliyik, həm də daha dəyərli məhsul istifadə edilməlidir. Karbonsuzlaşma gündəliyinə baxsaq, bizim SOCAR-la çox yaxşı partnyorluğumuz var. İnanıram ki, qısa zamanda bu sahədə əməkdaşlığımız öz nəticələrini verəcək. Bərpaolunan enerji layihələri bizim üçün mühüm əhəmiyyət kəsb edir. Dəmirlə titaniumun birləşməsindən hidrogen saxlancı üçün istifadə edirik. İnanıram ki, biz beynəlxalq bazarlarda əsas enerji təminatçılarından biri olacağıq. SOCAR da bu istiqamətdə bizə lazımi köməyini göstərir, dəstəyini əsirgəmir", - deyə A.Xasenov qeyd edib.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun sözlərinə görə, Cəbrayıldakı "Şəfəq" Günəş-Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin inkişafına mühüm töhfə verəcək.

"Biz regionda ilk günəş enerjisi layihəmiz ilə bağlı yekun investisiya qərarını indicə qəbul etmişik. İstehsal olunan elektrik enerjisi işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafının dəstəklənməsinə sərf olunacaq", - deyə Q.Counz qeyd edib.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Vaxtanq Tsintsadze diqqətə çatdırıb ki, hələ başlanğıcdan Gürcüstan Azərbaycanla birlikdə bir çox layihələrdə iştirak edib və Azərbaycan etibarlı tərəfdaş rolunu davam etdirir.

O qeyd edib ki, Gürcüstan tranzit ölkə kimi yaşıl enerjinin təchizatını təmin edə bilər.

"Biz əməkdaşlıq edərək bunu genişləndirə bilərik. Azərbaycan, Gürcüstan, Qara dəniz və Şərqi Avropa ölkələri arasında həyata keçirilən "Yaşıl Enerji Dəhlizi" ambisiyalı layihədir. Ümid edirik ki, digər ölkələr də bu layihəyə qoşulacaq", - deyə nazir müavini bildirib.

Maldiv Respublikası turizm və ətraf mühit nazirinin müavini Hüseyn Aqil Nasir öz çıxışında qeyd edib ki, Maldiv güclü, təhlükəsiz enerji gələcəyi uğrunda mübarizə aparır.

"Biz və bizim kimi ölkələr iqlim dəyişikliyinin təsirlərini dərindən hiss edirik. Enerji sektoru idxal edilən dizeldən çox asılıdır. Bu asılılığı azaltmaq üçün bərpaolunan enerjinin payını artırmağa çalışırıq. Təbii ki, burada partnyorluq və güclü enerji infrastrukturunun yaradılması çox vacibdir. Biz, həmçinin enerji təhlükəsizliyinin təmin edilməsi, milli infrastrukturun artırılması, regional enerji bazalarının gücləndirilməsi üçün çalışırıq. Eyni zamanda, partnyor ölkələrdən dəstək gözləyirik. Birgə investisiyanın qoyulması, stabil enerjinin qurulmasına dəstəyə ehtiyac var. Maldiv beynəlxalq partnyorluğa mühüm əhəmiyyət verir. Gəlin, birlikdə dayanıqlı, təhlükəsiz və inklüziv enerji uğrunda çalışaq", - deyə nazir müavini qeyd edib.

Qvineya-Bisau Respublikasının ətraf mühit, biomüxtəliflik və iqlim dəyişikliyi üzrə fəaliyyətlər naziri Viriatu Luis Soares Kassama vurğulayıb ki, sərhədlərarası tərəfdaşlığın neft-qaz sektorunda gücləndirilməsi vacib amillərdəndir.

"Biz bunun ilkin mərhələsindəyik. Tərəfdaşlıq nəinki qlobal enerji təchizatını, həmçinin yerli potensialı da gücləndirəcək. Qlobal tərəfdaşlığın, xüsusilə texnologiya sahəsində olması çox önəmlidir. Regional enerji siyasəti bizim enerji siyasətimizin əsasını təşkil edir. İqlim sahəsində ölkələri ədalətə çağırırıq", - deyə o bildirib.

Somali Federativ Respublikasının energetika və su resursları naziri Abdullahi Bidhaan Varsame çıxışında Somalinin böyük bərpaolunan enerji mənbələrinə sahib olduğunu vurğulayıb.

"Bu gün Bakıda keçirilən Bakı Enerji Forumunda iştirakımız, eyni zamanda qlobal fəaliyyətlərdə də iştirakımızı gücləndirir. Biz Somalidə günəş stansiyaları qurmuşuq. Bu işləri davam etdirəcəyik və bərpaolunan enerjinin gücünü artıracağıq. Bu sahəyə investisiya yatırılmasını istəyirik. Somalidə bərpaolunan enerjinin potensialı genişdir. Bildiyiniz kimi, Somalidə ilin 360 günü günəş var. Günəş enerjisi Somali üçün yetərli enerji təmin edəcək", - deyə somalili nazir qeyd edib.

Nazir, həmçinin Somali ilə Azərbaycan arasında əməkdaşlığa dair imzalanmış anlaşma memorandumunun əhəmiyyətindən də danışaraq qeyd edib ki, bu sənədlər iki ölkə arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasına və ikitərəfli əlaqələrin bir çox sahələrdə inkişafına təkan verəcək.

Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov Bakı Enerji Forumunda çıxışı zamanı bildirib ki, 2030-cu ilə qədər 6 giqavatdan çox yaşıl enerji istehsal olunacaq ki, bunun da 4 giqavatı ixrac ediləcək.

O qeyd edib ki, yaşıl enerjinin ixracı mərhələli olaraq Xəzər-Qara dəniz-Avropa dəhlizi vasitəsilə həyata keçiriləcək.

"Son illər yaşıl enerjiyə investisiya yatırırıq. Biz hazırda 4 interkonnektor layihəsinə başlamışıq. Bu layihələr Mərkəzi Asiya, Xəzər və Qara dəniz regionlarının müxtəlif hissələrini birləşdirərək Avropaya qədər uzanacaq. 2035-ci ildən sonra hidrogen istehsalına başlayacağıq", - deyə o bildirib.

"Masdar"ın Biznesin inkişafı və investisiyalar üzrə (MDB) rəhbəri Məryəm Rəşid Əl Məzrui nəzərə çatdırıb ki, şirkət ilin sonunadək Azərbaycanda 240 meqavatlıq külək layihəsinin tikintisinə başlamağa ümid edir.

"Azərbaycan "Masdar" üçün strateji bazarlardan biridir. 240 meqavatlıq külək layihəsi hazırda inkişaf mərhələsindədir. Biz ilin sonuna kimi layihənin tikintisinə başlayacağımıza ümid edirik", - o bildirib.

"TotalEnergies"in Azərbaycan üzrə ölkə sədri Emmanuel de Guillebon əlavə edib ki, Azərbaycanda layihələri həyata keçirmək üçün innovativ olmaq lazımdır: "Yeni konsepsiya qarşımızdadır. Budəfəki dənizaltı infrastruktur - 140 kilometrlik yeni, çoxfazalı boru kəməri Səngəçalda inşa ediləcək qaz emalı zavoduna qədər uzanacaq".

O qeyd edib ki, bu kəmərdə qaz və kondensat qarışıq ötürüləcək.

"Abşeron" qaz-kondensat yatağının ikinci mərhələsində qabaqcıl texnologiyalar tətbiq olunacaq. Yatağın yeni fazası 3 dəfə böyük olacaq", - deyə o bildirib.

"ACWA Power" şirkətinin Biznesin inkişafı üzrə direktoru Polina Lyubomirova çıxışında deyib ki, şirkət olaraq həyata keçirdikləri layihələr dövlətin məqsədlərinə uyğundur.

"Bütün ölkələrdə portfelimiz kifayət qədər genişdir. Dünyada 100-dən çox aktivimiz var və 14 ölkədə fəaliyyət göstəririk. Onların arasında Azərbaycan strateji və əziz partnyordur. "ACWA Power" şirkəti Azərbaycanda kompleks işlər görür. Biz təkcə enerji layihələri deyil, su təchizatı layihələrini də həyata keçirir, suların duzsuzlaşdırılması layihəsi üzərində çalışırıq. Bu ilin yanvarında tenderdə dəniz suyunun duzsuzlaşdırılması layihəsi üzrə qalib olduq. Layihə nəticəsində 300 min kubmetrdən çox su emal ediləcək. Bu layihələr göstərir ki, biz ölkədə ehtiyaclara köklənirik", - deyə P.Lyubomirova qeyd edib.

Sessiya və panel müzakirələrdə qeyd olunub ki, Bakı Enerji Forumu özünü səmərəli əməkdaşlıq üçün etibarlı platforma kimi təsdiqləyib.

Forumda, həmçinin yerli və xarici şirkətlərin nümayəndələrinin ünsiyyət qurmasına və mümkün əməkdaşlığın bütün aspektlərini ətraflı müzakirə etməyə imkan verəcək ikitərəfli B2B işgüzar görüşlər də keçirilir. Forum enerji sənayesinin aparıcı nümayəndələri ilə görüşmək, yeni səmərəli və qarşılıqlı əlaqələr qurmaq və mövcud əlaqələri genişləndirmək üçün unikal imkan yaradır.

Qeyd edək ki, Bakı Enerji Forumuna Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir. Tədbir Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) tərəfindən dəstəklənir.

Forum iyunun 4-də öz işini davam etdirəcək. Təşkilatçıların dəvəti ilə dünyaca tanınmış qlobal biznes eksperti, məruzəçi, isveçli iqtisadçı, futuroloq və beynəlxalq "bestseller" kitabların müəllifi Kyell A.Nordström 30-cu Yubiley Bakı Enerji Forumunda iştirak edəcək. Forumun 2-ci günündə Bakı Konqres Mərkəzində tanınmış məruzəçinin xüsusi çıxışı olacaq. Müasir dövrün ən parlaq mütəfəkkirlərindən biri olan Nordström Azərbaycanda ilk dəfə olaraq qlobal iqtisadiyyatın gələcəyi, enerji bazarlarının transformasiyası və oyun qaydalarını dəyişəcək innovasiyalarla bağlı fikirlərini bölüşəcək.

Forumun son günündə "COP29 nəticələri - Dayanıqlı gələcəyə aparan yol", "Kyell A.Nordström ilə Xüsusi sessiya: Beynəlxalq Biznes və Ultramüasir Şirkətlərin Gələcək Ssenariləri", "Enerjidə Rəqəmsallaşma: Məlumat və Texnologiyanın Gücü", "Qaz Bazarı - istehsalçı, nəqliyyatçı və istehlakçılar üçün yeni struktur", "Neft və Qaz kəmərləri - etibarlı infrastruktur vasitəsilə enerji təhlükəsizliyinin təmin edilməsi", "Elektrik Enerjisinin İstehsalı və Şəbəkə İnfrastrukturunun İnkişafı: Gələcəyin Enerji Təchizatı" mövzularında panel müzakirələri keçiriləcək.

# Müstəqilliyimizi və dövlətçiliyimizi xilas edən lider

## 1993-cü ilin iyununda Gəncə hadisələri ilə başlanan ağır və faciəli proseslərin qarşısını Heydər Əliyev dühası aldı



***1993-cü ilin Gəncə hadisələrindən 32 il ötür. Həmin vaxt baş verən faciəli hadisələr, qardaş qanının tökülməsi AXC-Müsavat iqtidarının naşı idarəçiliyinin, ölkədə yaratdığı dərin siyasi böhranın nəticəsi idi.***

Bütün bunlar isə Azərbaycanı uçuruma, müstəqilliyimizin itirilməsinə, dövlətçiliyimizin məhvinə aparırdı. Yalnız Heydər Əliyevin proseslərə müdaxiləsi ölkəmizi və xalqımızı xilas etdi.

Azərbaycan xalqının dövlət müstəqilliyinə gedən yolu digər postsovet respublikaları xalqlarından fərqli oldu. Bu yolda milli mübarizə apardıq, şəhidlər verdik, əziyyətlərə qatlaşdıq. Lakin müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan siyasi qruplaşmalar azadlığı qoruyub saxlamağın onu əldə etməkdən nə qədər çətin olması həqiqətini anlaya bilmədilər. Onlar müstəqil dövlətçiliyimizin təməllərini möhkəmləndirmək və dövlət quruculuğunu həyata keçirmək əvəzinə hakimiyyət uğrunda mübarizə apardılar, öz iqtidarlarını gücləndirməyə çalışdılar və bununla da Azərbaycanı dərin böhranlara sürüklədilər. Ermənistanın işğalçı planları qarşısında torpaqlarımızın müdafiəsiz qalaraq işğal olunması, ərazilərimizdə separatçı meyillərin baş qaldırması bütün bunların, hakimiyyətdə bir-birini əvəzləyən siyasi qaragüruhların öz maraqları naminə xəyanətkar fəaliyyətlərinin nəticəsi idi.

1993-cü ilin yayına doğru isə siyasi və hərbi böhran daha da dərinləşmiş, mərkəzdənqaçma prosesi özünün ən yüksək səviyyəsinə çatmışdı. AXC-Müsavat iqtidarı faktiki olaraq hakimiyyət orqanlarına, o cümlədən, ordu qüvvələrinə nəzarəti itirmişdi. Cəmiyyət həyatının bütün sahələrində anarxiya, xaos baş alıb gedirdi. Cəbhədə döyüşməli olan hərbi hissələr hakimiyyət uğrunda mübarizəyə qoşulmuşdular. 1993-cü ilin may ayında prezident Ə.Elçibəyin yanında keçirilmiş iclas da ölkədəki siyasi böhranın nə qədər dərin olduğunu və mövcud iqtidarın problemlərin qarşısında aciz qaldığını göstərirdi. Dövlət idarəetmə aparatı öz qarşısında dayanan vəzifələri yerinə yetirə bilmirdi. Belə bir şəraitdə isə torpaqlarımızın işğalı və vətəndaş müharibəsinin baş verməsi qaçılmaz idi.

1993-cü ilin fevralında prezident Ə.Elçibəy keçmiş korpus komandiri S.Hüseynovun rəhbəlik etdiyi 709 saylı hərbi hissənin ləğv edilməsi haqqında sərəncam imzalamışdı. Ölkədəki mərkəzdənqaçmanın, hakimiyyətin yerlərdə nəzarəti itirməsinin nəticəsi idi ki, bu sərəncamın tələbləri yerinə yetirilmədi. 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni sərəncam da kağız üzərində qalmışdı. Ölkəni idarə edə bilməyən AXC-Müsavat iqtidarı S.Hüseynovun qarşısında əsir-yesirə çevrilmişdi. Bundan sonra hakimiyyət 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı növbəti qərar qəbul etmişdi. 1993-cü il iyunun əvvəllərində isə Gəncə şəhərində sözügedən hərbi hissənin şəxsi heyəti ilə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi, qardaş qanı töküldü. Bu, AXC-Müsavat qaragüruhunun idarəçilikdə buraxdığı kobud səhvin artıq özünün ən son həddinə çatmasından xəbər verirdi. Çoxsaylı insan ölümünə səbəb olan bu hadisə həm də ölkədəki siyasi anarxiyanın, AXC-Müsavat iqtidarına qarşı ümumxalq inamının olmamasının göstəricisi idi.

Gəncədə baş verən qanlı hadisədən sonra ölkədəki vəziyyət daha da ağırlaşdı. Hakimiyyət orqanları faktiki olaraq iflic vəziyyətinə düşdülər. Ölkədə idarəolunmaz bir şərait yarandı. Belə bir vəziyyətdə S.Hüseynovun tabeçiliyindəki silahlı dəstə Gəncə və ətraf rayonlarda hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başlaması isə daha böyük faciələrdən xəbər verirdi. Ölkə vətəndaş müharibəsinin astanasında idi. Ən acınacaqlısı o idi ki, hələ kövrək olan müstəqilliyimizin, dövlətçiliyimizin taleyi sual altına düşmüşdü.

Həmin ağır günlərdə Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi xalqın sabaha olan inamını bərpa etdi. Heydər Əliyev çıxışlarının birində bununla bağlı demişdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Azərbaycanın müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqımızın özünün böyük oğluna, həyatı və mübarizəsi üçün ümummilli liderlik missiyası xarakterik olan Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki ölkəmizdəki hərbi-siyasi böhranı, Gəncədə başlanmış qardaş qırğınını, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü, xaosu, anarxiyanı yalnız Heydər Əliyev dühası aradan qaldıra bilərdi. Bunun üçün Heydər Əliyevin ünvanına saysız-hasabsız teleqramlar göndərilir, Ulu Öndər Bakıya dəvət olunur. Bu mənada Heydər Əliyevin xalqın çağırışı ilə Bakıya gəlişi Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün verilən tarixi qərar idi. 1993-cü il iyun ayının 9-da Bakıya gələn Heydər Əliyev ilk gündən xilaskarlıq missiyasını həyata keçirməyə başladı, Gəncəyə gedərək vəziyyətlə yerində tanış oldu, hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz dəyərli sözünü dedi. Elə bu səfərlə Ulu Öndər ölkədə vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Yalnız Heydər Əliyev kimi güclü və dəmir iradəli şəxsiyyət öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilərdi. Bu addımı vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan adam ata bilərdi.

Xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirən Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsi Ulu Öndərə olan ümumxalq inamının bariz təsdiqi idi. Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycan bütün təhlükələrdən qurtuldu, xilas oldu. Ulu Öndərin siyasi hakimiyyətə gəlişi Azərabycanın tarixində yeni siyasi eranın başlanğıcına çevrildi.

32 il əvvəl Heydər Əliyevin xilas etdiyi, inkişaf yoluna çıxardığı Azərbaycan bu gün tarixinin qüdrətli dövrünü yaşayır. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün tam bərpa edilməsi tariximizi şərəfləndirir, gələcəyimizə işıq salır. Bütün bunlar göstərir ki, dövlət və xalq yalnız özünün əsl, vətənpərvər və qətiyyətli liderləri ilə güclü olur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Laçından verilən mesaj

## Azərbaycanı gözü götürməyənlər bir daha anladılar ki, bizim etibarlı müttəfiqimiz və sadiq dostlarımız var

İndi siyasətçilərin tez-tez işlətdikləri "yeni dünya düzəni yaranır" sözlərinin arxasında dəhşətli faktlar dayanır: prosesdə bir çox dövlətin dünyanın siyasi xəritəsindən silinməsi gözlənilir. Bu gün Rusiyada mühüm dövlət vəzifəsi tutan məmurların, Duma deputatlarının və siyasətçilərin SSRİ-nin bərpası barədə verdikləri aqressiv bəyanatlar bunu bir daha təsdiq edir.

İkinci Dünya müharibəsindən sonra sərhədlərin toxunulmazlığı barədə qəbul edilən qərarlara artıq əhəmiyyət verilmir. İndi dövlətlərin ərazi bütövlüyünü özündə ehtiva edən Helsinki Yekun Aktının adını belə çəkən yoxdur. Rəsmi olmasa da, qeyri-rəsmi şəkildə bu sənəd qüvvədən düşmüş hesab olunur. İndi gücə və yaranan yeni reallıqlara əsaslanıb qərarlar qəbul edilir.




Biz bunu öz acı təcrübəmizdən yaxşı bilirk. 30 il torpaqlarımız işğal altında olanda üzdə bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü qəbul etsə də, onun həyata keçməsi üçün heç bir təsirli tədbir görmədilər. Azərbaycan məcbur olub BMT-nin 51-ci maddəsinə uyğun olaraq, güc tətbiq edib ərazi bütövlüyünü təmin etdi. Hətta bundan sonra da bizim BMT-nin Nizamnaməsinə uyğun atdığımız addıma qarşı çıxan qüvvələr hələ də fəal şəkildə işğalçı Ermənistanı dəstəkləyir, silahlandırırlar.

Dünyanın nüfuzlu siyasətçilərinin fikri belədir ki, yeni dünya düzənində hansı dövlətlər iqtisadi və hərbi cəhətdən güclü olsalar, onlar dövlətçiliyi və ərazi bütövlüyünü qoruya biləcəklər. Bunun üçün həm də güclü və etibarlı müttəfiqlər lazımdır. Prezident İlham Əliyevin apardığı xarici siyasətdə bu məsələ öndə durur. Mayın 28-də Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Laçında keçirilən Zirvə görüşü buna sübutdur. Həmin görüşün mayın 28-də keçirilməsinin xüsusi mənası var idi. Bu, bizə qarşı birləşən düşmənlərimizə müstəqilliyimiz və ərazi bütövlüyümüzün toxunulmazlıq mesajı idi. Həmin tədbirin işğaldan azad edilən ərazidə keçirilməsi isə dünyaya Azərbaycanın iqtisadi cəhətdən güclü dövlət olduğunu bəyan edirdi. Həm də bəyan olunurdu ki, Ermənistandan gələ biləcək hərbi təcavüzdən çəkinmirik, ərazimizin toxunulmazlığını qorumaq iqtidarındayıq. Ən əsası isə dünyaya bir daha göstərildi ki, Azərbaycan tək deyil, onun hərbi-siyasi cəhətdən Türkiyə və Pakistan kimi etibarlı, güclü müttəfiqi və dostu var.

Bu iki dövlətin bizim etibarlı müttəfiqimiz və dostumuz olması 44 günlük Vətən müharibəsində də göründü. Bir çox dövlət açıq şəkildə işğalçı Ermənistanı dəstəklədikləri halda, onlar bizim yanımızda olduqlarını bildirdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq şəkildə bəyan etdi: "Babamın oğlu olsa belə göz yaşına baxmaram". Pakistandan gələn bəyanat da çox kəsərli idi. Dövlət səviyyəsində bəyan olundu ki, Pakistan bütün hərbi və siyasi gücü ilə Azərbaycanın yanındadır. Unutmayaq ki, Türkiyə NATO-nun üzvü, Pakistan nüvə silahına malik ölkədir.

Həmin dövr Rusiya televiziya kanallarında gedən gərgin siyasi debatlarda erməniəsilli və erməniyanlı siyasətçilər Rusiyanın Azərbaycana birbaşa hərbi müdaxilə etməsini tələb edirdi. Onlara bir rus politoluqunun cavabı belə oldu: "Sizin Türkiyə və Pakistanın verdiyi bəyanatlardan xəbəriniz varmı?" Cavabını da özü verdi: "Ərdoğan 85 minlik ordu ilə Ermənistan və Naxçıvan sərhədindədir. Atom silahına malik Pakistan isə bütün hərbi-siyasi gücü ilə Azərbaycanın yanındayam deyir. Bizə bu dövlətlərlə müharibə aparmaq lazımdır?"

Heç kəsə sirr deyil ki, bu gün bir sıra xristian ölkələrində islamofobiya hökm sürür. Biz bunu Ermənistanın torpaqlarımızı işğal edəndə Qərbin Ermənistanı müdafiə etməsində də gördük. Təəssüf ki, indinin özündə də bu məkrli siyasət davam edir, özü də daha ciddi, daha təhlükəli. Dünyada baş verən siyasi proseslərə diqqət yetirdikdə görürük ki, bütün islam dövlətlərinə qarşı Qərb tərəfindən ardıcıl olaraq süni şəkildə problem yaradılır. Məsələn, Türkiyənin güclü dövlət olmaması üçün 40 il PKK-nı açıq və gizli şəkildə dəstəklədilər. Maraqlısı odur ki, PPK-nı dəstəkləyən ölkələr arasında Türkiyənin NATO üzrə müttəfiqləri də var idi. Türkiyənin onlarla bir hərbi-siyasi ittifaqda olması belə islamofobiyadan çəkindirmədi.

Məlum olduğu kimi, Pakistanla Hindistan arasında Kəşmir üstündə dəfələrlə müharibələr baş verib. Bütün müharibələrdə də Hindistan üstün olub. Son hərbi toqquşma baş verəndə hərbi və siyasi analitiklər yenə də Hindistanın Pakistandan güclü olması, qalib gələcəyi barədə fikirlər səsləndirirdilər. Ancaq bu dəfə onlar yanıldılar. Döyüşlərə ilk başlayan Hindistan atəşkəs barədə müraciət etməyə məcbur oldu. Çünki Pakistan həmin Pakistan deyildi, Hindistan kimi nəhəngə cavab verməyi bacaran qüdrətli dövlət idi.

Laçında keçirilən Zirvə görüşündə dövlətimizin başçısının Türkiyə və Pakistanın 44 günlük Vətən müharibəsində mənəvi və siyasi cəhətdən yanımızda olmaları barədə dediyi sözlər xalqımızın qədir bilməsindən xəbər verir. Prezident İlham Əliyev demişdir: "Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq. Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik".

Bu fikirlərsə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məxsusdur: "Qarşılıqlı sevgi, hörmət və etimada əsaslanan, eyni mədəniyyət mühitindən bəhrələnən ortaq idealları bölüşən üç qardaş ölkəyik. Təxminən 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib ölkələrimizin arasındakı bağları daha da gücləndiririk. Birliyimizi strateji tərəfdaşlığa çevirməyə yönəlmiş hər bir addımın arxasında olduğumuzu xüsusilə vurğulamaq istəyirəm".

Elə bu səbəbdən Laçında keçirilən Zirvə görüşü dünyada geniş rezonans doğurdu. Çünki bu görüşdə Azərbaycan, Türkiyə və Pakistan baş verə biləcək bütün sınaqlara hazır olduqlarını nümayiş etdirdilər. Bəzi məlum ölkələr anladılar ki, Azərbaycana qarşı atılan hər hansı yanlış addım üç güclü dövlətin müqavimətinə tuş gələ bilər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Laçın şəhərində "MDB-nin mədəniyyət paytaxtı - 2025" ilinin rəsmi açılışı olub

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Laçın rayonunda Prezidentin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə iyunun 3-də Laçın şəhərində "MDB-nin mədəniyyət paytaxtı - 2025" ilinin rəsmi açılış mərasimi keçirilib.






AZƏRTAC xəbər verir ki, açılışda rəsmi şəxslər, tanınmış elm və mədəniyyət xadimləri, beynəlxalq ekspertlər, eləcə də yerli və xarici media nümayəndələri iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli çıxışında MDB Humanitar Əməkdaşlıq Şurasının 2024-cü ilin 8 oktyabr tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan olunduğunu bildirib. O qeyd edib ki, bu qərar mühüm sosial-mədəni əhəmiyyət daşıyır və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni və iqtisadi dirçəliş prosesinə beynəlxalq ictimaiyyətin dəstəyinin və həmrəyliyinin parlaq göstəricisidir.

Onun sözlərinə görə, Laçın şəhərinin "MDB-nin mədəniyyət paytaxtı" elan edilməsi şəhərin mədəni dirçəlişi və beynəlxalq əməkdaşlıq sisteminə fəal inteqrasiyası üçün mühüm təkan olacaq.

"2020-ci ildə ərazilərimizin işğaldan azad olunmasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə bu torpaqlarda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Azad olunmuş ərazilərin bərpa konsepsiyası yalnız infrastrukturun və abidələrin fiziki yenidən qurulmasını deyil, həm də mədəni həyatın dirçəlişini nəzərdə tutur", - deyə A.Kərimli diqqətə çatdırıb.

MDB Baş katibinin müavini Nurlan Seytimov Laçında keçirilən tədbirin əhəmiyyətini vurğulayıb. O bildirib ki, Laçının "MDB-nin mədəniyyət paytaxtı" elan olunması təkcə Azərbaycan üçün deyil, bütün region üçün mühüm hadisədir. Bu təşəbbüs mədəni əməkdaşlığın genişlənməsinə, həmçinin azad edilmiş ərazilərin dirçəlişinə töhfə verəcək.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyətinin həmsədri Polad Bülbüloğlu qeyd edib ki, bu gün biz Laçının Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı kimi yüksək status almasının sevincini yaşayırıq. Onun sözlərinə görə, bu əlamətdar hadisə Laçının zəngin mədəni irsinin dünyaya tanıdılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bildirib ki, bu gün bir çox mədəniyyət xadimləri buradadır və bu da Laçının Azərbaycanın mədəniyyət mərkəzinə çevrilməsinin bariz nümunəsidir.

"Bizim üçün bu proqramın həyata keçirilməsi böyük sevinc doğurur. Mənə elə gəlir ki, bu proqram çox düzgün şəkildə və məqsədəuyğun olaraq icra olunur. Bu prosesə verdiyi dəstəyə görə, Müstəqil Dövlətlər Birliyinin əlaqələndirici qurumlarına ayrıca təşəkkürümü bildirmək istəyirəm", - deyə Mixail Şvıdkoy qeyd edib.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov deyib ki, işğal illərində Laçında və digər ərazilərimizdə tarixi abidələrimizə qarşı vandallıq aktı törədilib. O qeyd edib ki, 217 mədəniyyət, 101 təhsil və 142 tibb müəssisəsi, 462 ticarət obyektləri, 30 rabitə və bir çox sənaye obyektləri məhv edilib. 54 dünya əhəmiyyətli tarixi abidə və 200 yerli əhəmiyyətə malik abidəyə xeyli ziyan dəyib.

Çıxışlardan sonra Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy tərəfindən Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədova "Birliyin mədəniyyət paytaxtı" sertifikatı təqdim edilib.

Daha sonra Laçının işğal dövründə məruz qaldığı dağıntıları və Azərbaycanın bu bölgədə bərpa-quruculuq prosesini əks etdirən videoçarx nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.




# Ötən 30 il göstərdi ki...

## Prezident İlham ƏLİYEV: "Enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir"

**Bu gün Bakı Enerji Həftəsi öz işini başa çatdıracaq. Üç gündür paytaxtımız Azərbaycanın enerji sektorunun dünyaya işıq saçdığına bir daha əmin olur. Bu tədbirlə Azərbaycan enerjisinin çox-çox uzaqlara çatan səsi geniş əks-səda verir.**









Bakı 30-cu dəfədir Bakı Beynəlxalq Xəzər Neft və Qaz sərgisinə evsahibliyi edir. Həmin sərgiyə ki Bakı Enerji Həftəsinin bünövrəsini yaradıb. Hər il onunla yanaşı, həm də Bakı Enerji Forumu (əvvəl Beynəlxalq Xəzər Neft və Qaz Konfransı adlanırdı) keçirilir. 13-cü dəfədir bu tədbirlərlə paralel olaraq "Caspian Power" sərgisi də baş tutur. Bu, əvvəlki dövründə elektroenergetikanı, son bir neçə ildə isə həm də "yaşıl enerji"ni əhatə edən bir sərgidir. Bakı Enerji Həftəsi bu üç möhtəşəm tədbiri birləşdirir.

İlk Beynəlxalq Xəzər Neft və Qaz sərgisi 1994-cü ilin mayında keçirildi. Həmin vaxt ölkəmizdəki məlum vəziyyətə görə belə bir sərginin keçirilməsi demək olar ki, mümkünsüz idi. Lakin Ümummilli Lider Heydər Əliyev bunu öz səyi, zəkası və siyasi nüfuzu sayəsində mümkün etdi. Sərgidən bir neçə ay sonra "Əsrin müqaviləsi" imzalandı. Mübaliğəsiz demək olar ki, həmin möhtəşəm sazişin imzalanmasına neft-qaz sərgisi bir növ yol açdı. Çünki orada bir sıra mühüm məsələlər müzakirə olundu.

Elə o zaman da sərgi özünə daimi məkan "seçdi". Hər ilin təxminən eyni vaxtında "Caspian Oil and Gas" dünyanın onlarca ölkəsinin aparıcı şirkətlərini, görkəmli mütəxəssislərini bir araya gətirir. Günün sahəyə aid məsələlərinin müzakirə olunması, yeni tanışlıqların yaranması, təcrübə mübadiləsinin aparılması, növbəti əməkdaşlıqların qurulması baxımından bu, çox dəyərli bir tədbirdir. Sərgi çərçivəsində ötən illər ərzində yeni layihələrin işlənməsinə start verən müqavilələr də imzalanıb.

"Caspian Oil and Gas" qlobal layihələrimizlə birgə addımlayıb, layihələr də bu möhtəşəm tədbirlə çiyin-çiyinə verib. Beləcə, bir-birinin uğurlarına şahidlik ediblər.



*Fotolar İlham BABAYEVİNDİR*

Bu gün təkcə neft-qaz sektorunda deyil, bütün sahələrdə ölkəmizin qazandığı nailiyyətlər göz qabağındadır. Prezident İlham Əliyev ötən illərdə olduğu kimi, bu dəfə də Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində iştirak etdi və öz çıxışında keçilmiş yola nəzər salaraq dedi: "Təsəvvür edirsiniz ki, gələcəklə bağlı nə dərəcədə qaranlıq mənzərə yaranmışdı?! Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir. Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir. Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir. Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı".

Bir uzunömürlü sərgi, əməkdaşlıq platforması, uğurların nümayişi olaraq "Caspian Oil and Gas" 30 ildən çoxdur beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməkdədir. Təsadüfi deyil ki, hər il ABŞ, Böyük Britaniya, Türkiyə kimi ölkələrin rəhbərlərindən, dünyanın tanınmış siyasətçi və mütəxəssislərindən tədbirin açılışı münasibətilə Prezidentimizə təbrik məktubları ünvanlanır. ABŞ Prezidenti Donald Tramp budəfəki tədbirlə bağlı dövlətimizin başçısına məktubunda yazır: "Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisinin keçirilməsi münasibətilə təbrik edirəm. Bu, Azərbaycanın, həqiqətən də, regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir. 30 il ərzində iki millətimiz, iki xalqımız, həqiqətən də, enerji sərvətləri fonunda karbohidrogen sektorunda liderliyini nümayiş etdirmişdir. Həqiqətən də, qlobal enerji ehtiyatlarının növbəti onillərlə qarşılanması baxımından da bu çox önəmlidir ki, hər bir xalqın resursları öz rifahına xidmət etsin".

ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə baş müşaviri Vayat Tolki "Bakı-Ekspo" Mərkəzində rəsmi açılış mərasimində çıxışı zamanı məktubu səsləndirərkən onu Azərbaycanla ABŞ-nin ortaq maraqlarını əks etdirən və enerji təhlükəsizliyinin təmin olunmasında ölkəsinin bizimlə işbirliyinə sadiqliyini təsdiq edən mühüm bir mesaj kimi dəyərləndirdi.

Bəli, ötən illər ərzində Azərbaycan öz tərəfdaşları ilə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərləri inşa edib. Xəzərdən İtaliya sahillərinədək uzanan 3500 kilometrlik qaz dəhlizi çəkib. Cəmi bir il əvvəl - keçəndəfəki enerji həftəsi keçirilən zaman Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı 8 idi. Bu gün "Cənub qaz dəhlizi" Azərbaycan qazını artıq 12 ölkəyə çatdırır. Bu, əlbəttə, son hədd deyil.

Prezidentimiz belə deyir və onun hər sözü imzası qədər etibarlı, dəyərli və kəsərlidir!

Azərbaycanın "yaşıl enerji" gündəliyi də artıq hamıya bəllidir. İmzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, ölkəmiz 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacaq. Bu da bərpaolunan enerjinin ümumi enerji istehsalımızda 35 faizindən çox olacağı deməkdir. Həmin potensial sayəsində Azərbaycan elektrik enerjisinə artan tələbatını əsasən bərpaolunan enerji hesabına təmin edəcək. Nəticədə bir neçə milyard kubmetr qaza qənaət ediləcək və bu həcm ixrac oluna biləcək.

"2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir. Yəni bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaqlar. Həmçinin imzalanmış yeni sazişlər və nəzərdə tutulan müqavilələr həmin potensialı təmin edəcəkdir. Ötən il "Bakı Enerji Həftəsi" çərçivəsində toplam 1000 meqavat "yaşıl enerji" həcmində müqavilələr imzalandı. Bu tədbir çərçivəsində də bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaqdır. Yəni biz bu yol ilə irəliləyirik".

Bunu da Prezidentimiz deyib. Deməli, bu cür də olacaq və növbəti enerji həftələrində yeni nailiyyətlərdən bəhs olunacaq, yeni layihələrə imza atılacaq, yeni əməkdaşlıq yolları açılacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

### Reportaj

# Sərgilərdə təqdim olunan enerji layihələri təkcə "mühərrik"ləri deyil, ideyaları da hərəkətə gətirir

**"Bakı-Ekspo" Mərkəzi müasir texnologiyaların, dinamik təqdimatların və beynəlxalq əməkdaşlığın bir araya gəldiyi iki mühüm sərgiyə növbəti dəfə öz qapılarını açdı.**









Bu gün "Caspian Oil and Gas" və 13-cü "Caspian Power" təkcə enerji sahəsində texnoloji yeniliklərin nümayiş olunduğu bir sərgi olmaqla kifayətlənmir, həm də müxtəlif ölkələrin şirkətləri, dövlət rəsmiləri və sahə mütəxəssisləri üçün əməkdaşlıq, fikir mübadiləsi və gələcəyə dair ortaq baxışların formalaşdığı qlobal platforma kimi çıxış edir. "Bakı-Ekspo" Mərkəzində yaranan bu peşəkar və innovativ mühit enerji sənayesinin bugünkü reallıqlarını və sabaha olan baxışını birləşdirir.

Pavilyonlarda təqdim olunan qabaqcıl texnologiyalar və ekoloji həllər regionda və dünyada enerji keçidinin nə qədər sürətlə irəlilədiyini aydın şəkildə əks etdirir. 30-cu yubiley sərgisi olaraq "Caspian Oil and Gas" keçmişin uğurlarını, bu günün gücünü və sabahın potensialını eyni səhnədə birləşdirən simvolik bir görüş yerinə çevrilib. Burada hər stend, hər təqdimat, hər fikir bir tarix danışır. İllər öncə sərginin ilk addımlarından başlayan yol bu gün enerjinin qloballaşan dilinə çevrilib. 30-cu yubiley ab-havası isə tədbirə xüsusi bir ehtiram, qürur və gələcəyə inam qatır. Sərgi mərkəzinə ayaq basandan etibarən insanı özünə çəkən bir enerji atmosferi hiss olunur. Sanki burada təkcə cihazlar və texnologiyalar deyil, eyni zamanda ideyalar, məqsədlər və gələcək üçün qurulan ümidlər nümayiş olunur. İşıqlı stendlər, interaktiv ekranlar, canlı təqdimatlar və dünyanın dörd bir yanından gələn iştirakçıların səmimi dialoqları bu tədbiri adi bir sərgidən fərqləndirir.

Qeyd edək ki, sərgidə 300-dən çox şirkət iştirak edir. Onların arasında dünyanın enerji nəhəngləri olan BP, "TotalEnergies", SOCAR, ADNOC, "Equinor", MOL Group, "ExxonMobil", "Chevron", TPAO, "Itochu", KazMunayGas, "Lukoil", "Masdar", "ACWA Power" və başqaları var. Stendlərdə nümayiş etdirilən texnologiyalar arasında süni intellektlə idarə olunan qazma sistemləri, boru xətlərinin dronlarla nəzarət sistemləri və karbon emissiyalarının azaldılmasına yönəlmiş həllər diqqət çəkir. Ona görə də deyə bilərik ki, Bakı hazırda sadəcə şəhər deyil, bir fikir mərkəzinə çevrilib. Paytaxtımız bu gün təkcə enerjini çıxaran və ixrac edən yox, həm də onu dərk edən, dəyişdirən və sabaha daşıyan bir gücdür. Çünki enerji təkcə hasil olunan resurs deyil, həm də paylaşılacaq məsuliyyətdir.

Hər guşə sanki enerji sektorunun gələcəyinə açılan bir pəncərədir. Günəş panelləri, külək turbinləri, süni intellektlə təchiz edilmiş idarəetmə sistemləri, "ağıllı şəbəkə" konseptləri sərginin əsas elementləridir. Diqqətçəkən məqamlardan biri də odur ki, burada yalnız maşınlar deyil, vizyonlar da sərgilənir. Mavi ekranlarda parlayan rəqəmlər sanki sabahın xəritəsini çəkir. Dünyanın dörd bir yanından gəlmiş şirkətləri təmsil edən nümayəndələr həm məhsullarını, həm də inandıqları dəyərləri paylaşırlar. Burada hər künc, hər stend, hər detal bir hekayə danışır. Bunlar insan əzminin, yeniliyə olan marağın, diqqətin və gələcəyə olan inamın hekayəsidir. Ziyarətçilər bir neçə dəqiqə içində müxtəlif ölkələrin qabaqcıl texnoloji




nailiyyətləri ilə tanış olur, interaktiv stendlərdəki prosesləri müşahidə edir, ekspertlərlə bilavasitə dialoq qurmaq imkanı qazanır, gördüklərini və öyrəndiklərini yaddaşlarına hopdururlar. Gənc bir mühəndis sərgidə gördüyü hansısa yenilikdən ilhamlanıb sabahın liderinə çevrilə bilər. Bir əcnəbi investor burada eşitdiyi ideya ilə yeni istiqamət aça bilər.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinə məxsus pavilyonda külək turbinləri fırlanır, bir az kənarda isə Azərbaycanın neft və qaz infrastrukturu interaktiv xəritə üzərində nümayiş olunur. Düşünürəm ki, Xəzər Neft və Qaz Sərgisi artıq, doğrudan da, enerji diplomatiyasının mühüm platformasına çevrilib. Burada keçmişin mirası ilə gələcəyin innovasiyası üz-üzə dayanır. Stendlər arasında gəzərkən gözümüz ilk olaraq SOCAR-ın nümayiş etdirdiyi yeni nəsil qazma texnologiyasına sataşır. İştirakçılar və ziyarətçilər arasında maraqlı bir sükut var, hamı ekranda göstərilən simulyasiyanı diqqətlə izləyir.

Bir qədər irəlidə BP-nin interaktiv lövhəsi ətrafında toplaşan qonaqlar karbon emissiyalarının azaldılması üzrə yeni konsepsiyanı müzakirə edirlər. BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyliyə yaxınlaşıb sərgi ilə bağlı fikirlərini bölüşməyi xahiş edirik: "BP Azərbaycan dövləti ilə ilk hasilatın pay bölgüsü sazişini imzalayan şirkət kimi birinci gündən etibarən ölkənin neft-qaz sənayesində baş verən bütün vacib hadisələrin iştirakçısı olub. Bu baxımdan Bakı Enerji Həftəsi və onun mühüm tədbiri olan Xəzər Neft-Qaz sərgisində fasiləsiz iştirakımızı qeyd edə bilərəm. Sərginin təsis edilməsindən 30 il keçməsinə baxmayaraq, bu əhəmiyyətli tədbir yenə də öz statusunu qoruyub saxlayır. Məhz bu səbəbdəndir ki, sərgi iştirakçılarının sayı ildən-ilə artır. Hər il həm ölkədə, həm də ölkənin hüdudlarından kənarda fəaliyyət göstərən çoxsaylı yeni şirkət sərgiyə gəlir. Əslində, bu sərgi əlavə bir imkandır ki, biz il ərzində, bütövlükdə 30 il müddətində ölkədə göstərdiyimiz fəaliyyət barədə həm özümüzə, həm hökumətə, həm də geniş ictimaiyyətə hesabat verək. Eyni zamanda sərgi yeni planlarımızın bölüşməsi, yeni müqavilələrin imzalanması üçün ideal məkan və geniş əməkdaşlıq meydanıdır. Burada dövlət və hökumət üzvləri, tərəfdaş şirkətlər, ölkədə fəaliyyət göstərən subpodrat şirkətlər, eləcə də media təmsilçiləri və beyin mərkəzlərinin nümayəndələri bir araya gəlirlər. Bu baxımdan sərgi dialoq, hesabat və yeni əməkdaşlıq üçün gözəl platformadır".

Daha sonra 13-cü Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisi - "Caspian Power" pavilyonuna keçirik. Burada isə həm simvolik, həm də texnoloji baxımdan tam fərqli bir enerji var. Günəş panelləri, elektrik enerjisi ilə çalışan "ağıllı batareya"lar, hətta yerli startapların təqdim etdiyi mikroşəbəkə layihələri də diqqətlərdən yayınmır. Pavilyonla tanış olarkən texnologiyanın yalnız güc və sürət deyil, həm də təbiətlə harmoniya və gələcək nəsillərə cavabdehlik anlamı daşıdığını görmək olur. Günəş panellərinin parıltısı, külək turbini maketlərinin ritmik fırlanışı və alternativ enerji mənbələri üzrə təqdim olunan innovativ həllər bu hissəni fərqli bir enerjiyə bürüyür. Bu pavilyonda ziyarətçiləri daha çox düşündürən sadəcə texnoloji inkişaf deyil, həm də bu texnologiyaların daha təmiz, davamlı və təhlükəsiz bir gələcəyə xidmət etməsidir. Yerli və beynəlxalq şirkətlərin təqdim etdiyi "yaşıl layihə"lər, "ağıllı şəbəkə"lər gələcəyin enerjisinə atılan real və praktiki addımlar kimi təqdim olunur.

Günboyu keçirilən panel sessiyalar isə sərginin intellektual çəkisini artırır. Enerji keçidi, rəqəmsallaşma, yeni bazar modelləri - bütün bu mövzular dünyanın aparıcı enerji beyinləri tərəfindən müzakirə edilir. Sessiyalarda müxtəlif ölkələrdən gələn mütəxəssislər təkcə texnologiya haqqında danışmır, həm də ortaq gələcəyə dair strateji baxışlar səsləndirirlər. Bu da o deməkdir ki, sərgiyə evsahibliyi edən ölkəmiz tədbirdə həm də biliklərin, təcrübələrin və qlobal dialoqun təşəbbüskarı kimi çıxış edir. Üstəlik, Azərbaycanın dünyaya açıq, əməkdaşlığa hazır və enerjiyə dair çağırışlara cavab vermək iqtidarında olan bir tərəfdaş olduğu sübuta yetir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Baş prokuror Lənkəran rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək olunması üçün müvafiq tədbirlər görülür.

İyunun 3-də baş prokuror Kamran Əliyev Lənkəran rayon prokurorluğunun inzibati binasında Lənkəran, Astara, Lerik rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 18 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Həmkarlar İttifaqının nümayəndələri Xalq artisti Arif Babayevi ziyarət ediblər





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elkiyar Ziyadov "Bilgəh" sanatoriyasında dincələn görkəmli xanəndə, Xalq artisti Arif Babayevi ziyarət edib.**

Muğam sənətimizin inkişafındakı xidmətlərinə görə "Şöhrət", "İstiqlal" və "Şərəf" ordenləri, "Heydər Əliyevin 100 illiyi" yubiley medalı ilə təltif olunmuş Arif Babayevlə görüşdə sənətkarın səhhəti ilə maraqlanılıb, ona diqqət və ehtiram göstərilib. Eyni zamanda xanəndənin Heydər Əliyev mükafatına layiq görülməsi münasibətilə təbriklər çatdırılıb.

Görüş zamanı respublika komitəsi tərəfindən mədəniyyət işçilərinin sosial rifahının yaxşılaşdırılması, peşəkar inkişafının və yaradıcılıq imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə danışılıb.

Xalq artisti göstərilən diqqət və qayğıya görə Həmkarlar İttifaqının nümayəndələrinə təşəkkür edib.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# DİA-da Türkiyənin tanınmış professorları, beyin mərkəzlərinin nümayəndələri və politoloqları ilə görüş olub



İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Türkiyənin tanınmış universitetlərinin, media orqanlarının və tədqiqat mərkəzlərinin 10-a yaxın nümayəndəsinin iştirakı ilə "Hazırkı geosiyasi reallıqlar fonunda Azərbaycan və Türkiyə münasibətlərindəki inkişaf meyilləri" mövzusunda dəyirmi masa keçirilib.

Bu barədə AZƏRTAC-a DİA-dan məlumat verilib. Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanın dünyadakı iqtisadi və siyasi göstəricilərinə dair geniş təqdimatla çıxış edib.

Rektorun müşaviri, politoloq Zaur Məmmədovun moderatorluğu ilə keçən "dəyirmi masa"da Milli Məclisin deputatları Hikmət Babaoğlu və Aydın Mirzəzadə, Hacettepe Universitetindən Esma Özdaşlı, Türkiyə Siyasi və Strateji Araşdırmalar Vəqfinin sədri Sinan Demirtürk, Hacettepe Universiteti Strateji Araşdırmalar Mərkəzinin müdir müavini Özlem Pınar Oran, Ankara Böhran və Siyasət Araşdırmaları Mərkəzinin sədri professor Mehmet Seyfettin Erol, Türkiyə İqtisadi Siyasətləri Araşdırma Vəqfi Orta Şərq və Orta Asya İnstitutunun direktoru Hilmi Demir, Dövlət İdarəçilik Akademiyasının dekanı Mürtəza Həsənov, Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova və digərləri çıxış edərək tədbirin aktuallığını vurğulayıblar. Tədbirdə Azərbaycan və Türkiyəni narahat edən çağırışlar geniş şəkildə təhlil edilib. "Dəyirmi masa"da 2020-ci ildən sonra formalaşan yeni geosiyasi şəraitdə bölgə ətrafındakı vəziyyətdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyi qeyd olunub, ikitərəfli münasibətlərə xələl gətirmək istəyən qüvvələrin məqsədlərinə çatmayacağı vurğulanıb. Dəyişən beynəlxalq münasibətlər sistemi fonunda Azərbaycan və Türkiyə öz milli maraqlarını qarşılıqlı dəstək şəklində bundan sonra da qoruyacaqlar və həyata keçirəcəklər.

Xatırladaq ki, Türkiyədən 10 nəfərlik nümayəndə heyətinin dünəndən etibarən Azərbaycana səfərləri davam etməkdədir. İyunun 2-də qonaqlar Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində "Yeni geosiyasi reallıqların Türkiyə-Azərbaycan münasibətləri üçün yaratdığı təhdidlər və fürsətlər" mövzusunda "dəyirmi masa"da iştirak ediblər.

# Qarabağ Dirçəliş Fondundan daha bir mühüm təşəbbüs

## Fond Qarabağ Universitetinin 50 tələbəsinə təqaüd dəstəyi göstərəcək

**Xankəndidə keçirilən "Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu" çərçivəsində Qarabağ Dirçəliş Fondu (QDF) işğaldan azad olunmuş ərazilərdə insan kapitalının inkişafına yönəlmiş mühüm təşəbbüslə çıxış edib. Belə ki, bölgədə təhsilin keyfiyyətinin yüksəldilməsi, gənclərin potensialının üzə çıxarılması və dayanıqlı inkişafının təmin edilməsi məqsədilə QDF 2025-2026-cı akademik ili çərçivəsində Qarabağ Universitetində təhsil alan 50 tələbəyə təqaüd dəstəyi göstərəcəyini bildirib.**



Bu təşəbbüs forum çərçivəsində Qarabağ Dirçəliş Fondu ilə Elm və Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Təhsilin İnkişafı Fondu arasında memorandumun imzalanması ilə rəsmiləşdirilib.

Tərəflər arasında əldə edilən razılaşma QDF-in "Qarabağ Təqaüd Proqramı" çərçivəsində istedadlı tələbələrə maddi dəstək göstərmək, onların akademik və peşəkar inkişafını təşviq etmək və bölgədə bilik iqtisadiyyatının inkişafına töhfə vermək istiqamətində strateji öhdəliyini əks etdirir.

Proqrama əsasən, seçilmiş hər bir tələbə bir akademik il ərzində hər ay 200 AZN məbləğində təqaüdlə təmin olunacaq. Bu, ümumilikdə hər tələbə üçün 2000 AZN təşkil edir. Təqaüdə namizədlər universitet tərəfindən akademik göstəricilər əsasında, Təhsilin İnkişafı Fondu ilə əlaqəli şəkildə müəyyən olunacaq.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, təhsil dayanıqlı inkişafın hərəkətverici qüvvəsidir və azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi baxımından mühüm rol oynayır: "Bu təqaüd proqramını dəstəkləməklə, biz regionun gələcəyinə sərmayə yatırırıq. Həmçinin bu əhəmiyyətli forumun təşkilatçılarından biri kimi çıxış etməklə, Qarabağ Dirçəliş Fondu bir daha dövlət və özəl sektor nümayəndələrini bir araya gətirən vahid platforma rolunu oynadı. Proqramı donorlarımıza və tərəfdaşlarımıza tanıtdı və digər şirkətləri bu vacib missiyaya qoşulmağa təşviq etdi".

Qeyd edək ki, bu töhfə ictimai qurumları və aparıcı şirkətləri bir araya gətirən daha geniş təqaüd təşəbbüsünün bir hissəsidir. Məqsəd Qarabağın sosial-iqtisadi dirçəlişini sürətləndirməklə yanaşı, bölgədə insan kapitalının formalaşdırılmasına xidmət etmək, akademik nailiyyətləri yüksək olan tələbələrin motivasiyasını artırmaq, eləcə də gənclər üçün təhsil imkanları yaratmaqdır.

Xatırladaq ki, "Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu" 2 iyun 2025-ci il tarixdə elm və təhsil naziri Emin Əmrullayev, Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, eləcə də dövlət qurumlarının nümayəndələri, özəl sektor təmsilçiləri, Qarabağ Universitetinin professor-müəllim heyətinin iştirakı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində keçirilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Son bir ayda özünüməşğulluq proqramı üzrə 945 şəxs üçün kiçik təsərrüfatlar qurulub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatı davam etdirilir.




Ötən ay paytaxt və regionlarda 945 nəfər işsiz və işaxtaran şəxs bu proqram çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin olunub.

Verilmiş aktivlər hesabına proqram iştirakçıları üçün kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik təsərrüfatlar yaradılıb.

Proqrama cəlb olunanlar üçün ilk mərhələdə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir.

Təlimləri bitirənlərə biznes planlarına uyğun aktivlər verilir.

# "Şahdəniz Kompressiya" layihəsi ilə bağlı yekun investisiya qərarı imzalanıb

"Şahdəniz" konsorsiumu Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsi olan yeni "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi üçün yekun investisiya qərarını elan edib.

AZƏRTAC BP-nin yaydığı məlumata istinadən xəbər verir ki, dəyəri 2,9 milyard dollar olan ŞDK layihəsi yatağın işlənməsinin əvvəlki iki mərhələsinin davamıdır. Bu layihədə məqsəd yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

ŞDK layihəsi üzrə yekun investisiya qərarının rəsmi imzalanması bu gün Bakı Enerji Həftəsi çərçivəsində baş tutub.

SOCAR-ın prezidenti Rövşən Nəcəf deyib: ""Şahdəniz Kompressiya" layihəsi Azərbaycanın enerji tarixində yeni və mühüm bir səhifədir. Bu layihə resursların uzunmüddətli işlənməsi, texnoloji irəliləyiş və beynəlxalq tərəfdaşlığa sadiqliyimizi əks etdirir. Bu investisiya "Şahdəniz"in regionda və ondan kənarda mühüm enerji mənbəyi kimi rolunu daha da gücləndirəcək və eyni zamanda yerli iqtisadiyyatımız və işçi qüvvəsi üçün yeni imkanlar yaradacaq. Elektriklə işləyən, heyətsiz kompressiya platforması texnologiyasının tətbiqi regionda dəniz işlənmələri sahəsində müasir və səmərəli bir yanaşmadır. Bununla yanaşı, layihənin yerli tikinti resurslarından və təcrübədən istifadəyə üstünlük verməsi ölkənin potensialının qurulmasına və iqtisadi artımın dəstəklənməsinə olan sadiqliyimizi göstərir. Bütün tərəfdaşlarımıza davamlı etimadlarına və əməkdaşlığa görə təşəkkür edirik. SOCAR bu layihənin təhlükəsiz və səmərəli, həmçinin Azərbaycan və tərəfdaşlarımız üçün maksimum fayda gətirəcək şəkildə həyata keçirilməsi üçün çalışacaq".

"Şahdəniz" yatağının operatoru olan BP şirkətinin regional prezidenti Qəri Counz deyib: "Bu mühüm layihə dünyanın ən böyük və mürəkkəb qaz yataqlarından biri olan "Şahdəniz"in qarşıdan gələn onilliklər ərzində qlobal iri enerji təchizatçısı kimi qalmasına və bu nəhəng yataqdan maksimum ümumi hasilat əldə etməyə imkan yaradacaq. Bu uğur yolumuzda göstərdikləri dəstəyə və əməkdaşlığa görə Azərbaycan hökumətinə, SOCAR-a və "Şahdəniz" layihəsindəki tərəfdaşlarımıza təşəkkür edirik".



Layihə çərçivəsində yeni kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya Əsasən Heyətsiz Qurğu (eNUI)) inşası nəzərdə tutulur. Platforma suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" (ŞDB) platformasından təxminən 3 kilometr məsafədə quraşdırılacaq.

Üzərində dörd ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq ŞDK platforması həm "Şahdəniz Alfa" (ŞDA), həm də ŞDB platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl ŞDK-də kompressiya olunacaq.

Layihə həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri də əhatə edir. Bunlara daxildir:

- Mövcud ŞDA və ŞDB platformalarının qaz ixrac xətlərinə birləşən yataqdaxili sualtı qaz boru kəmərləri.
- ŞDK platformasını enerji ilə təchiz etmək üçün Səngəçal terminalından çəkilən birləşdirilmiş elektrik və fiber-optik kabel xətti.
- ŞDB-dən ŞDK platformasına birləşdirici ehtiyat elektrik və fiber-optik kabel xətti.

Bundan əlavə, layihə ŞDA, ŞDB və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Tikinti işlərinin 2025-ci ilin sonlarında başlanacağı planlaşdırılır. Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə ŞDA-dan, 2030-cu ildə isə ŞDB platformasından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır. Tikinti işləri ölkə daxilində yerli resurslardan istifadə etməklə həyata keçiriləcək və 4000-ə qədər iş yeri yaradacaq.

"Şahdəniz"də iştirak payları belədir: BP (operator - 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19,00 faiz), Cənub Qaz Dəhlizi (16,02 faiz), NİKO (10,00 faiz) və MVM (5,00 faiz).

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" adlı beynəlxalq konfransın birinci günü yekunlaşıb

Azərbaycanın paytaxtında Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfransın birinci günü yekunlaşıb.








AZƏRTAC xəbər verir ki, tədbir BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq konfransıdır.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov dünyada dekolonizasiya prosesinə dəstək verən qlobal platformaya və kolonializmdən əziyyət çəkən xalqlar üçün ümid mənbəyinə çevrilmiş BTQ-nin təşkilatçılığı ilə keçirilən konfransda müstəmləkəçilik probleminin elmi cəhətdən müzakirə ediləcəyini və onun beynəlxalq təşkilatların prizmasından nəzərdən keçiriləcəyini diqqətə çatdırıb.

Bu xüsusda kolonializmdən əziyyət çəkən xalqların öz müstəqilliyi uğrunda mübarizə aparan siyasi partiyaların, QHT-lərin, hüquq müdafiəçilərinin BTQ-nin yaratdığı platformadan öz haqlı səslərini beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırmaq üçün istifadə etdiklərini vurğulayan A.Abbasov artıq növbənin elmi dairələrin təmsilçilərində olduğunu bildirib. Qonaqlar sırasında BMT-nin institutlarında təmsil olunan və BMT qurumları ilə sıx çalışan ekspertlərin yer aldığı xüsusi vurğulanıb.

A.Abbasov dünyanın bəzi bölgələrində müstəmləkəçiliyin müxtəlif təzahürlərinin şahidi olduğunu qeyd edərək, onların müxtəlif vasitələrlə gizli şəkildə - siyasi, iqtisadi, maliyyə, mədəni və qanunvericilik strukturları vasitəsilə əbədiləşdirilməsinə çalışıldığını bildirib.

Məhz bu kontekstdə BTQ tərəfindən dekolonizasiya səylərinə dəstək göstərmək məqsədilə son iki ildə Qvadelup, Mayot, Kanaki (Yeni Kaledoniya), Fransız Qvianası, Reyunyon, Korsika, Martinik, Mao hi Nui (Fransız Polineziyası) və müstəmləkəçilikdən əziyyət çəkən digər ərazilərə həsr edilmiş konfranslar təşkil olunub.

Kolonializmin bütün müasir təzahürlərinin beynəlxalq hüquqi mexanizmlər, ictimaiyyətin məlumatlılığının artırılması və çoxtərəfli əməkdaşlıq vasitəsilə həll edilməli olduğunu vurğulayan A.Abbasov kolonializmin davam etməsinin BMT Nizamnaməsinə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və BMT Baş Assambleyasının digər çoxsaylı qətnamələrinə zidd olduğunu vurğulayıb.

O, tədbirin məqsədinin öz müqəddəratını təyin etmək hüququna hörmət edən dünya naminə intellektual bazanın dəstəklənməsi olduğunu bildirib.

Konfrans çərçivəsində "Müstəmləkəçiliyin ideoloji əsasları", "Müqavimət və dekolonizasiya" mövzusunda panel iclaslarında BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun (PFPAD) üzvü (Sent-Lüsiya) xanım June Christine Marie Soomer, ABŞ-ı təmsil edən İdarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin, PFPAD üzvü, kolumbiyalı pastor Elias Murillo Martinez, Əlcəzair Universitetinin elmi-tədqiqat işləri üzrə rəhbəri professor Chakib Benhafri, Cənub Sakit Okeanı Universitetində baş müəllim Lorenz Rudolf Gonschor, Əlcəzairdən olan elmi tədqiqatçı Hichem Daoud və ADA Universitetinin dosenti Murat Özkale çıxış ediblər.

Natiqlər qeyd ediblər ki, müstəmləkəçilik təkcə siyasi və iqtisadi təzyiq vasitəsi deyil, eyni zamanda, ideoloji əsaslarla bəraət qazandırılmış və uzun müddət davam etdirilmiş idarəetmə sistemidir. Tarix boyu imperiyalar tərəfindən tətbiq edilən müstəmləkəçilik siyasəti, əsasən, üstün irq, sivilizasiyanın yayılması və modernləşmə kimi anlayışlarla əsaslandırılıb.

Müstəmləkəçiliyin ideoloji dayaqları bir neçə əsas prinsipə söykənir. Bunlardan "Sivilizasiya missiyası" ("La mission civilisatrice") - xüsusilə Fransa və Böyük Britaniya tərəfindən geniş istifadə edilən bu anlayış müstəmləkə siyasətinə bəraət qazandırmaq üçün formalaşdırılmışdı. Məqsəd guya "geri qalmış xalqlara" mədəniyyət, təhsil və inkişaf gətirmək idi. XIX əsrin sonlarından etibarən Avropada geniş yayılan sosial darvinizm və irqçi ideologiyalar bəzi xalqları "aşağı", bəzilərini isə "üstün" irq kimi təqdim edirdi. Bu da müstəmləkələrin idarə olunmasına "elmi" əsas kimi təqdim edilirdi. Bu proses "İrqçi nəzəriyyələr" adını alıb.

Müstəmləkəçilik tez-tez dini missionerliklə birgə həyata keçirilirdi. Xristianlığı yaymaq adı ilə yerli əhali öz mədəni və dini dəyərlərindən uzaqlaşdırılır, Avropa dəyərləri tətbiq edilirdi. Eləcə də "Mədəni assimilyasiya": müstəmləkə metropolları yerli xalqları öz dillərini, adət-ənənələrini və mədəniyyətlərini itirməyə məcbur edərək onları mərkəzin mədəni mühitinə uyğunlaşdırmağa çalışırdılar.

Bu ideoloji əsaslar təkcə müstəmləkəçilik dövründə deyil, həm də postmüstəmləkə dövrdə siyasi və iqtisadi asılılıq formalarında özünü göstərməyə davam edir. Bu gün bir çox tədqiqatçılar belə ideologiyaların yeni formalarda - neokolonializm adlandırılan siyasətdə hələ də mövcud olduğunu bildirirlər.

Müstəmləkəçiliyin ideoloji əsaslarının ifşası və bu siyasətin nəticələrinin beynəlxalq aləmdə müzakirəyə çıxarılması müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Bakı Təşəbbüs Qrupu tərəfindən keçirilən beynəlxalq konfranslar da məhz bu istiqamətdə qlobal dialoqun formalaşmasına töhfə verir.

Qeyd olunub ki, müstəmləkəçilik və onunla mübarizə yolları həm də tədris proqramına əlavə edilməli, xüsusilə universitet səviyyəsində tədris edilməlidir.

Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində tanınmış mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri, eləcə də deputatlar iştirak edirlər.

Tədbirdə müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara münasibətdə həyata keçirdikləri siyasət, tətbiq olunan ayrı-seçkilik metodları, habelə neokolonializmin tərkib hissəsi olan tətbiq edilən siyasi, iqtisadi və mədəni məhdudiyyətlər, millik kimliyin məqsədli şəkildə itirilməsi siyasəti elmi və metodoloji yanaşmalar əsasında dərindən təhlil olunur.

Beynəlxalq hüququn, habelə BMT qətnamələrinin tələbi olan dekolonizasiya prosesinin yekunlaşdırılmasının kolonial güclər tərəfindən qarşısının alınması və bu kontekstdə beynəlxalq təşkilatlar çərçivəsində mövcud imkanlardan istifadə, təsirli mexanizmlərin həyata keçirilməsi, həmçinin sistemli bərabərsizliklərin beynəlxalq təşkilatlar səviyyəsində həlli yolları müzakirə olunub.

Konfrans sual-cavab sessiyası ilə davam edib.

## Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 3-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

İclasın əvvəlində təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək təqsirləndirildiyi cinayət işi üzrə ittiham aktının surətinin ailəsinə təqdim olunmasını xahiş edib.

R.Vardanyanın vəkili Avraam Berman onun mövqeyini müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, Cinayət Prosessual Məcəlləsinə əsasən, cinayət təqibi zamanı ibtidai araşdırma məlumatları, o cümlədən cinayət işi materialları və ittiham aktında qeyd olunanlar istintaq sirrini təşkil etdiyindən yayılması yolverilməzdir. Həmçinin ittiham aktında cinayət prosesi iştirakçılarının şəxsi və ailə sirrini təşkil edən məlumatlar var ki, bu məlumatların da yayılması qanunvericiliklə yolverilməz hesab edilir.

Bundan başqa vurğulanıb ki, Cinayət-Prosessual Məcəlləsində ittiham aktının və onun surətinin verilməsi mümkün olan şəxslərin siyahısı konkret göstərilib və təqsirləndirilən şəxsin ailə üzvləri həmin siyahıya daxil deyil.

Qeyd edilənləri əsas gətirən ittiham tərəfi vəsatətin təmin olunmamasını xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər dövlət ittihamını müdafiə edən prokurorların mövqeyi ilə razı olduqlarını bildiriblər.

Ardınca hakimlər kollegiyası yerində müşavirə edərək vəsatətin təmin olunmaması barədə qərar qəbul edib.

Zeynal Ağayev qərarı əsaslandıran zaman bildirib ki, cinayət prosessual qanunvericilikdə ittiham aktının surətinin təqdim olunması nəzərdə tutulan şəxslər konkret göstərilib və təqsirləndirilən şəxsin ailə üzvləri buraya daxil deyil.

Bundan sonra təqsirləndirilən şəxs Ruben Vardanyan müraciət edərək onun ailə üzvlərinə ittiham aktı təqdim edilmədiyi və əvvəlki proseslərdə verdiyi vəsatətlərin təmin olunmadığı üçün işə baxan hakimlər kollegiyasına etiraz etdiyini bildirib.

Təqsirləndirilən şəxsin müdafiəçisi Avraam Berman etirazı müdafiə edib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli etiraza münasibət bildirərək Ruben Vardanyanın Cinayət-Prosessual Məcəlləsinin 109-cu maddəsində nəzərdə tutulmuş hakimə etiraza dair halların müəyyən edilmədiyini, o cümlədən işə baxan məhkəmə kollegiyasının cinayət təqibində maraqlı olmasını təsdiqləyən konkret sübutlar təqdim etmədiyini bildirərək etirazın baxılmamış saxlanılmasını xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

Hakim Zeynal Ağayev qərarı əsaslandıran zaman bildirib ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olması barədə konkret və mötəbər dəlillər təqdim etməyib, məhkəmənin obyektivliyi və qərəzsizliyinə təsir göstərən dair hallar müəyyən edilməyib.

Daha sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Əhməd Əhmədov ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını deyib.

Zərərçəkmiş Bəhruz Bayramlı Ağdərədə düşmən tərəfindən atılmış top mərmisinin partlaması nəticəsində xəsarət aldığını bildirib.

Oruc Hüseynov ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən minaatan mərmisinin atılması nəticəsində yaralandığını deyib. Zərərçəkmiş şəxs dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən hadisə zamanı yanındakı 8 nəfərin yaralandığını da söyləyib.

Zərərçəkmiş Gülverdi Mehtiyev Xankəndi yaxınlığında açılmış atəş nəticəsində qəlpə yarası xəsarəti aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş şəxs Vurğun Oruczadə Ermənistan silahlı qüvvələrinin artilleriya silahlarından açılmış atəş nəticəsində yaralandığını qeyd edib.

Məmməd Bayramov isə bildirib ki, Laçında Ermənistan hərbçilərinin atdıqları güllələrdən yayınmaq istəyərkən mövqeyini dəyişən zaman ayağı sürüşdüyü üçün yerə yıxılıb, sağ ayağı diz nahiyədən əzilib.

Fəqan İsmayılov Kəlbəcərdə erməni hərbçilərin minaatan mərmisi atmaları nəticəsində xəsarət aldığını söyləyib. "Həmin vaxt azı 9 nəfər ağır xəsarətlər aldı. Onlardan biri də mən idim", - deyə zərərçəkmiş şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zaman qeyd edib.

Maqsud Mansurlu dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən Kəlbəcərdə yaralandığını, hadisə zamanı bir nəfərin həlak olduğunu, daha bir neçə nəfərin isə xəsarət aldığını söyləyib.

Sadiq Qasımlı ifadəsində diqqətə çatdırıb ki, Şuşada Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralanıb.

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında isə deyib ki, hadisə zamanı Ariz Məmmədov, İzzət Bağıyev və adlarını hazırda xatırlamadığı daha bir neçə nəfər müxtəlif növ bədən xəsarətləri alıblar.





Zərərçəkmiş Xəyal Abdullayev Xocavənd rayonu ərazisində minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Zərərçəkmiş İxtiyar İdrisov övladı Bəxtiyar İdrisovun Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Cəfərağa İsmayılov Ağdərə rayonu ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarətlər aldığını deyib.

Sübhan Abbasov ifadəsində Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində özünün, Tamerlan Rəşidlinin, Bayram Hüseynovun, Rəvan Məmmədovun yaralandığını qeyd edib.

Sahib Əliyev Ağdərədə minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində özünün, İman Nəzərovun, Ərşad Hüseynovun və Eşqin Babazadənin xəsarət aldığını bildirib.

Yusif Turabov deyib ki, o, Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş şəxs Hacı Kamil Rzayev Ağdam istiqamətində yaralandığını qeyd edib.

Ülfət Hümbətov Kəlbəcərdə düşmən tərəfinin artilleriya atəşi nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Kərəm Kərəmli Ağdam-Ağdərə istiqamətində yaralandığını bildirib.

Digər zərərçəkmiş şəxslər - Ərşad Hüseynov, Pərviz Ağalı, Rail Nəzərov, Kərəm Kərəmli, Arif Qubadov Rəhman Məmmədli, Fariz Fətullayev, Ayaz Cəfərli, Tamerlan Rəşidli, Tərlan Cabbarov, Aslan Hacıhəsənov, Elvin Bayramov, Elçin Nəsibov, Lətif Hacılı, Qabil Yusifov, Murad Nağıyev, Zahid Nəcəfov, Tahir Zamanov, Rafət Qəmbərov ifadələrində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən müxtəlif iriçaplı silahlardan açılan atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Məhkəmədə ifadə verən Mehman Məmmədov Ermənistanın mina terroru nəticəsində xəsarət aldığını deyib. Bundan başqa, o qeyd edib ki, Cəbrayıl rayonunda minaların təmizlənməsi zamanı "KamAZ" markalı yük avtomobili minaya düşüb, nəticədə sürücü Möhübbət Məmmədli ağır xəsarətlər alıb və hər iki ayağı amputasiya edilib.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 10-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

**4 İyun Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür**

# Xoşbəxt böyümək uşaqların haqqıdır

## Erməni quldurları uzun müddət balalarımızın bu haqqına qənim kəsilmişlər

**Bizdə həmişə uşaqlara böyük dəyər verilib, onlar sabahımızın sahibi hesab olunub, gələcəyimiz adlanıb. Özü də təkcə deməklə kifayətlənməmişik, onlara hərtərəfli diqqət və qayğı göstərmişik. Uşaqların sağlam, təhsilli böyümələri və inkişaf etmələri üçün əlimizdən gələni əsirgəməmişik.**




Bu gün də belədir. Təkcə ailədə deyil, cəmiyyətimizdə uşaqlara böyük diqqət və qayğı var. Uşaqlar bu diqqət və qayğını hər addımda hiss edirlər. Daim üzləri gülən, sevinən uşaqlar həm ailənin, həm cəmiyyətin, həm də dövlətin qayğısı əhatəsindədirlər. Onlar sabahımızın qurucuları və qəhrəmanları kimi böyüyürlər.

Uşaqların qorunması, sağlam və xoşbəxt böyümələri dünya ictimaiyyətinin də nəzərindədir. Təəssüf ki, uşaqlar heç də həmişə xoşbəxt ola bilmirlər. Dünyanın ayrı-ayrı ölkələrində müharibə, münaqişə və terror hadisələri zamanı onlar da yaralanır, həyatlarını itirirlər. Gələcəyimiz olan uşaqlar müharibə və terror qurbanlarına çevrilirlər.



Münaqişə və müharibələr uşaqlara bəlalar gətirib, işıqlı dünyalarını zülmətə çevirməsin deyə beynəlxalq səviyyədə indiyə qədər onların müdafiə olunmaları, təhlükəsiz yaşamaları üçün bir sıra mühüm qərarlar qəbul edilib. Hələ Birinci Dünya müharibəsi illərində Eglantye Djebb uşaqların daha çox əzab və işgəncələrə məruz qalmalarından sarsılaraq bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə onların müdafiəsini təmin etmək üçün Londonda Uşaqlara Yardım Fondunun əsasını qoyub. İlk dəfə olaraq 1924-cü ildə uşaqların hüquqlarının təmin olunması üçün bəyannamə qəbul edilib.

100 il əvvəl - 1925-ci ildə qəbul edilmiş Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına əsasən, müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törədilən bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır. 1950-ci ildə isə BMT Baş Assambleyası tərəfindən 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü təsis olunub. Həmin gün belə bir çağırışın edilməsi təsadüfi deyil. Çünki müvafiq qərar və konvensiyaların qəbul edilməsinə baxmayaraq, təəssüf ki, uşaqlar hələ də müharibə və münaqişələrdən əziyyət çəkirlər. Bütün bunları nəzərə alan Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən 1982-ci il iyunun 4-də daha bir mühüm beynəlxalq səviyyəli qərar qəbul edilib. Həmin qərara əsasən, hər il 4 İyun - Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur.

Həm iyunun 1-nin, həm də 4-nün Azərbaycan uşaqlarına birbaşa aidiyyəti var. Tam 30 il beynəlxalq konvensiya və qərarlara məhəl qoymayan ermənilər neçə-neçə azərbaycanlı uşağı böyük amansızlıqla qətlə yetirmişlər. Dünyada uşaq qatilləri kimi tanınan erməni vandallarının qanlı əməllərini yazmaqla, saymaqla qurtarmaz. Erməni cəlladları 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törətdikləri Xocalı soyqırımı zamanı yüzlərlə dinc sakinlə bərabər, uşaqların da qatilinə çevrilmişlər. Xocalı soyqırımı zamanı möcüzə nəticəsində xilas olan və xeyli müddət Respublika Təcili Yardım Xəstəxanasında müalicə olunan 5 yaşlı Ramil Həsənov deyirdi ki, ermənilərin əlindən qaçıb bir neçə gün meşədə ac-susuz və yarıçılpaq qalıblar. 4 yaşlı Vüsalə ilə 1 yaşlı Xəyalənin anası Sənəm Abdullayevanın söylədikləri isə dəhşətlidir: "Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anam, atam və 16 yaşlı bacımı meşədə güllələdilər. Mənə dəhşətli işgəncələr verdilər. Sonra bizi su ilə doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaları üçün uşaqları bir gün qollarımın üstündə saxladım".

Ermənistanla Azərbaycan arasında Qarabağ münaqişəsi başlayandan elə gün, ay olmayıb ki, ermənilər bizim körpələrə, uşaqlara qıymasınlar. Erməni cəlladları 1989-cu il iyulun 20-də Kəlbəcər rayonunda 8 məktəbyaşlı oğlan uşağını amansızcasına qətlə yetirmişlər. İşğalçıların öldürdükləri Sahil Məmmədovun 10, Razim Salmanovun 8, Anar Valehovun 7, Cahid İbişovun 10, Səxavət Abbasovun və Natiq Əsgərovun 14, Bəxtiyar Xəlilovun 11, Azər Orucovun 7 yaşı var idi. Həyatın şirinliyini dadmayan bu uşaqların günahı nə idi ki, ermənilər onları öldürmüşdülər? Təəssüflər olsun ki, heç bir beynəlxalq təşkilat indiyə qədər bu sualı erməni qatillərinə verməyib. Və təəssüflər ki, bu, yeganə fakt deyil. 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndini hədəf seçən ermənilər dinc sakinləri iriçaplı pulemyotlardan atəşə tutmuş və bu zaman 2 yaşlı Zəhra nənəsi Sahibənin qucağında həlak olmuşdur. Ümumiyyətlə, Qarabağ münaqişəsi zamanı ermənilər tərəfindən 193 azərbaycanlı uşaq qətlə yetirilmiş, 71 uşaq itkin düşmüşdür. Təkcə Xocalı soyqırımında qətlə yetirilən 613 dinc sakinin 63-ü, yaralanan 487 nəfərin 76-sı uşaq olmuşdur. Faktlardan da göründüyü kimi, eməni qəddarlığı heç bir sərhəd, beynəlxalq qanun və konvensiya tanımır.

Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 44 günlük Vətən müharibəsində və 3 il sonra uğurla həyata keçirilən antiterror əməliyyatları nəticəsində Qarabağda məskunlaşmış erməni separatizmi ilə birlikdə erməni uşaq qətliamına da son qoydu. Artıq gələcəyimiz olan uşaqlar erməni işğalçılarının silahlarının hədəfində deyillər. Bu gün uşaqlar Azərbaycan dövlətinin diqqət və qayğısı altında firavan yaşayır, təhsil alır, xalqımız və ölkəmiz üçün gərəkli vətəndaşlar kimi böyüyürlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Niderlandda hakim koalisiya dağılır

## Ermənipərəst və antiislamçı siyasətçi hökuməti tərk edir

Niderlandda ifrat sağçı Azadlıq Partiyasının (PVV) lideri Gert Vilders bildirib ki, onun partiyası immiqrasiya ilə bağlı fikir ayrılıqları səbəbindən hökuməti tərk edir. Bu, onsuz da qeyri-sabit olan hakim koalisiyanın dağılmasına və görünür, növbədənkənar seçkilərin keçirilməsinə səbəb olub.

Vilders partiyasının 2023-cü ilin noyabrında keçirilən seçkilərdə gözlənilməz qələbəsindən sonra koalisiya tərəfdaşları ilə razılaşdırılmış "indiyə qədərki ən sərt immiqrasiya siyasəti"nin həyata keçirilməsinin asta tempindən narazılığını ifadə edib. "Sığınacaq planlarımızda bizim imza yoxdur... PVV koalisiyanı tərk edir", - deyə Vilders "X" sosial şəbəkəsində bildirib. Gert Vilders vurğulayıb ki, Azadlıq Partiyasından olan bütün nazirlər Niderland hökumətini tərk edirlər. AFP agentliyi xəbər verir ki, bu, ifrat sağçı partiyaların Avropada güc qazandığı bir vaxtda Aİ-nin beşinci ən böyük iqtisadiyyatında siyasi qeyri-müəyyənlik dövrünü açır. Ölkədəki hökumət böhranı Niderlandın dünya liderlərinin NATO sammitinə evsahibliyi etməsinə bir neçə həftə qalmış baş verir.

Vildersin sürpriz seçki qələbəsindən 18 ay sonra sorğular göstərir ki, PVV-nin reytinqi azalsa da, hələ liderliyini qoruyur. Onun ardınca Avropa Komissiyasının keçmiş vitse-prezidenti Frans Timmermansın rəhbərlik etdiyi sol mərkəzçi Yaşıllar/Solçular partiyası və ənənəvi olaraq Niderland siyasətində güclü partiya olan liberal Azadlıq və Demokratiya Uğrunda Xalq Partiyası (VVD) gəlir.



### Miqrasiyanın qarşısını almaq üçün sərt plan

Mayın sonunda Vilders gözlənilmədən mətbuat konfransı keçirərək Baş nazir Dik Shof hökumətinə səbrinin tükəndiyini açıqlayıb. Onun immiqrasiyanın qarşısını almaq üçün 10 bəndlik yeni planı bir neçə həftə ərzində həyata keçirilməsə, koalisiyanı parçalayacağı ilə hədələyib.

Vildersin planına sığınacaq axtaranlar üçün sərhədlərin bağlanması, sərhəd nəzarətinin gücləndirilməsi və cinayətlərə görə məhkum edilmiş ikili vətəndaşların deportasiyası daxildir. O, tələblərini ümumiləşdirərək deyib: "Sığınacaq axtaranlar və ailələrin birləşməsini istəyənlər üçün sərhədləri bağlayın. Artıq yerləşdirmə mərkəzləri yoxdur. Olanları bağlayın".

Siyasətçilər və hüquqşünaslar bu təklifləri icrası mümkün olmayan və qanunsuz adlandırıblar. Bəziləri hesab edirlər ki, Vilders hökuməti devirmək üçün qəsdən böhrana yol açıb. Vildersi immiqrasiya əleyhinə baxışlarına və fərqli saç düzümünə görə tez-tez "Niderlandlı Tramp" adlandırırlar.

### Gert Vilders üçün siyasi perspektivlər

Vildersin partiyasının seçkilərdə qalib gəlməsinə baxmayaraq, onun ölkəyə rəhbərlik etmək cəhdi uğursuz olub. Koalisiyadakı tərəfdaşları onun baş nazir postuna namizədliyini əngəlləyərək, yerinə kompromis fiqur olan Dik Shofu seçiblər. Dörd koalisiya partiyasının liderləri öz partiyalarını parlamentdən idarə edərək nazir postlarını tutmamaq barədə razılığa gəliblər.

Vilders parlamentdə barışmaz fiqur olaraq qalır və bunu Timmermansla şifahi duelləri də göstərir. Ekstravaqant siyasətçi dəfələrlə bəyan edib ki, onun antiimmiqrasiya gündəmini həyata keçirməyin yeganə yolu baş nazir olmaqdır. Amma Niderlandın parçalanmış siyasi sistemində heç bir partiya 150 yerlik parlamentdə mütləq çoxluğu qazanmaq imkanında deyil və Vildersin müttəfiqlərə ehtiyacı var.

O, "Fermerlər və Vətəndaşlar Hərəkatı" aqrar partiyasının (BBB) dəstəyinə arxalana bilər. Lakin onun hazırkı, ancaq qeyri-sabit koalisiya tərəfdaşı olan VVD-dən olan liberalların dəstəyi şübhə altındadır. Koalisiyanın dördüncü partiyası - antikorrupsion "Yeni Sosial Xartiya" xarizmatik lideri Piter Omtsiqin gedişindən sonra seçicilər arasında dəstəyini itirib.

Xatırladaq ki, ifrat sağçı ermənipərəst Gert Vilders islam, miqrasiya, Niderlandın Aİ-yə üzvlüyü və Ukraynaya hərbi yardım ayrılmasına qarşı çıxan siyasətçi kimi tanınır.

Son məlumata görə, Niderlandın Baş naziri Dik Shof istefa verib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# İnvestorlar İrəvanı tərk edirlər

## Ermənistanın çəkisi gündən-günə aşağı düşür, biznes subyektləri getdikcə daha çox maneələrlə üzləşirlər



Ermənistanda postmüharibə dönəmində gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar əsasında fəaliyyət göstərəcək. Lakin Paşinyan iqtidarının yarıtmaz siyasəti, sülh müqaviləsinin imzalanmasının yubadılması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır. Ölkədə sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, tənəzzül durmadan genişlənməkdədir.

Son 6 ayın nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. "Heritage Foundation" tərəfindən dərc edilən "İqtisadi azadlıq indeksi-2025" illik hesabatına əsasən, 2025-ci ildə Ermənistanın iqtisadi azadlıq indeksi 65,4 bal olub ki, bu da əvvəlki ilin göstəricisindən 0,5 bənd yüksək, lakin 2021-ci il indeksindən 6,5 bənd aşağıdır.

Bütün bunların fonunda Ermənistanın bərpa göstəriciləri dünya və bütün regionlar üzrə orta bərpa göstəricilərindən xeyli aşağıdır. Yeri gəlmişkən, Ermənistan iqtisadi azadlıq səviyyəsinə görə dünyanın 176 ölkəsi arasında 57-ci yerdədir. İndeksin yüksəlməsinə baxmayaraq, Ermənistanın həmin reytinq cədvəlindəki mövqeyi 10 pillə pisləşib. Səbəb yenə də indeksin artımının dünya və bütün regionlar üzrə orta inkişaf tempindən əhəmiyyətli dərəcədə aşağı olmasıdır.

Ermənistanda dövlət maliyyə idarəçiliyi üzrə beynəlxalq məsləhətçi, "Vallex" şirkətlər qrupunun vitse-prezidenti Vardan Aramyan deyib ki, qızılın təkrar ixracı hesabına Ermənistanın yüksək iqtisadi artım templəri ilə öyünməməliyik, çünki bunlar real sənaye artımı deyil: "Mən bunu deyirdim və bu gün rüblük statistika dediklərimi sübut edir: ölkə sənayesində təxminən 16 faiz azalma qeydə alınıb. Üstəlik, buna paralel olaraq investisiyalarda artım da yoxdur. Ermənistanda xarici sərmayələr mənfidir. Pis xəbərimiz var: xarici sərmayələr mənfidir. İnvestisiya pulları Ermənistanı tərk edir. 44 milyard xaricə axınımız var".

Aramyan əlavə edib ki, Ermənistanın çəkisi gündən-günə aşağı düşür, biznes subyektləri getdikcə daha çox maneələrlə üzləşirlər.

Paşinyan hakimiyyətinin səriştəsizliyi və səhv addımları nəticəsində Ermənistan iqtisadiyyatı investisiya vakuumu içərisində qalıb. Baş nazir hakimiyyətə gələn kimi investorları təqib etdi, cinayət işləri ilə qorxutdu və iqtisadi layihələrini öz siyasi məqsədlərinə yönəltdi. Məlumata görə, "Amulsar" kimi investisiya layihələrindən birinin qarşısını almaq üçün əllərindən gələni ediblər. Bu layihənin həyata keçirilməsini ən azı 7 il gecikdirərək investisiya nüfuzuna böyük zərbə vurublar. Əvvəlki dövrdə başlanan və demək olar ki, istehsal mərhələsinə daxil olmağa yaxın olan layihəni indi özlərinə aid etməyə çalışırlar.

Bu durumda olan ölkə daha çox xarici dövlətlərdən asılı vəziyyətə düşür. Bu isə bir dövlət kimi Ermənistanın məhvi deməkdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məcnun oğlu Məmmədova qardaşı

**SAAD MƏCNUN OĞLU SAADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları vəkil Qayıb Cənnətova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3750**
**Sifariş 1126**

**Qiyməti 60 qəpik**